

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

24 dekabr
2024-cü il,
çərşənbə axşamı
№ 237 (6823)
Qiyməti
60 qəpik


# İLHAM ƏLİYEV - çoxhədəfli, hökmlü!



Bax səh. 2

## Prezidenti təbrik edirlər...

Bax səh. 2






Bax səh. 4-5

## “Liderliyin Zəfər formulu: xalqa şərəfli xidmət nümunəsi”

## Əməkdaşlıq və dialoq məkanı

Bax səh. 3

### Serbiyanın Səfirlər Müşavirəsində...

Azərbaycan xarici siyasətində Serbiya Respublikası ilə əməkdaşlıq vacib yer tutur. Serbiya Avropa məkanında ölkəmizin strateji tərəfdaşlarından biridir. Ötən illər ərzində qarşılıqlı əlaqələr yüksələn xətlə inkişaf edib. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun bu ölkənin dəvəti əsasında Serbiyanın Səfirlər Müşavirəsində iştirakı və çıxışı da dostluq münasibətlərinin göstəricisidir.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, Ceyhun Bayramov çıxışı zamanı Azərbaycan - Serbiya strateji tərəfdaşlığının...

Bax səh. 5

### D-8 “İslam doqquzluğu”na çevrilir

Məlum olduğu kimi, dekabrın 19-da Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammiti zamanı Azərbaycan Respublikası yekdilliklə D-8 təşkilatının üzvü seçilib. Bu, olduqca mühüm siyasi-iqtisadi hadisə olmaqla, Azərbaycanın yürütdüyü unikal diplomatiyanın növbəti uğuru kimi səciyyələndirilə bilər. Bu, eyni zamanda, regional və qlobal təşkilatlarda ardıcıl olaraq öz layiqli yerini tutan respublikamıza tərəfdaş ölkələrin dərin etimad və etibarının təzahürüdür.

“İslam Səkkizliyi” adlanan...

Bax səh. 6

### Qlobal nəqliyyat körpüsü

Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının (IRU) baş katibi Umberto de Pretto “Report”a müsahibəsində Orta Dəhlizin inkişaf perspektivlərindən danışarkən vurğulayıb ki, Çin və Avropa arasında nəqliyyat körpüsünə çevrilən Orta Dəhliz beynəlxalq yükdaşımalar üçün strateji əhəmiyyətini dayanmadan artırmaqdadır. Geosiyasi dəyişikliklər və ənənəvi marşrutlardakı məhdudiyyətlər bu dəhlizi qlobal ticarət və logistika sektorunun diqqət mərkəzinə gətirməkdədir. Dünyada daşınma və logistika üzrə ixtisaslaşmış nəhəng beynəlxalq şirkətlərin əksəriyyəti səmtini alternativ marşrut kimi Orta Dəhlizə yönəldir.

U. Prettonun fikrincə, Orta Dəhlizin miqyası və coğrafi hüdudları o qədər geniş və cəlbedicidir ki, vahid iqtisadi zona kimi...

Bax səh. 6

### Tramp - Putin görüşü baş tutacaqmı?

Məlum olduğu kimi, Tramp hələ seçkiqabağı təşviqat kampaniyasında prezident seçiləcəyi təqdirdə Rusiya-Ukrayna müharibəsini tez bir zamanda bitirəcəyi vədini vermişdi. Trampın arzusu təmin edilib - o artıq ABŞ Prezidentidir və gələn il yanvarın 20-dən Ağ Evdə vəzifəsinin icrasına başlayacaq. Bəs prezidentlik iddiası təmin olunan Tramp “müharibəni bitirəcəyəm” vədini yerinə yetirəcəkmi və bunu necə edəcək?

Trampla Putin 8 il bundan əvvəl görüşüblər. Ötən müddətdə dünyada və Rusiya - ABŞ münasibətlərində çox şey dəyişib. Bununla belə, indiki şəraitdə dünya, eləcə də...

Bax səh. 7

# Prezidenti təbrik edirlər...

Azərbaycan Prezidenti İlham Əliyevin ad günü münasibətilə dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri, tanınmış ictimai - siyasi xadimlər təbrik məktubu ünvanlayıb. Rusiya Prezidenti Vladimir Putin, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, İordaniyanın Kralı II Abdullah ibn Al Hüseyn, Macarıstanın Baş naziri Viktor Orban, Xorvatiya Prezidenti Zoran Milanoviç, Gürcüstanın Baş naziri İrakli İrakli Kobaxidze, Qazaxıstan Respublikasının birinci Prezidenti Nursultan Nazarbayev, Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev, Avrasiya İqtisadi Komissiyası Kollegiyasının sədri Bakıtcan Saqintayev, TÜRKSOY-un Baş katibi Sultan Raev və başqalarıAzərbaycan Prezidentini təbrik edib, gələcək fəaliyyətində uğurlar diləyiblər.





# İLHAM ƏLİYEV - çoxhədəfli, hökmlü!

2020-ci ildən bu yana Azərbaycan Respublikası Prezidentinin intonasiyası başqa müstəviyə adlayıb: çoxhədəfli və hökmlü! Ölkə başçısı bunu müharibə dönəminin hərb meydanında qazanılan uğurlarla simvolizə edə bildi. Milləti milli-diplomatik səriştə, peşəkar və ali mənəvi-əxlaqi təməllər üzərində savaş hərəkatına hazırlayaraq məsələnin ümummilli hərəkat kimi sabit, qlobal səciyyəsini axıra qədər qorudu, siyasi oriyentiri düzgün müəyyənləşdirməklə yanaşı, milli enerji və təlatümün, güclənən emosiyaların hərarətini orduya yönəldə bildi. Müharibədən sonra da hökmlü olmağı motivləndirən çox faktlar qoyuldu meydana: bir günlük antiterror əməliyyatı nəticəsində susdurulan düşmən, Azərbaycanın bayrağının Xankəndi və Xocalıda qaldırılması, CO29 kimi tədbirə ev sahibliyini uğurla sonuclandırması, iqlim diplomatiyasına verdiyi töhfə və son olaraq Azərbaycanın D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv seçilməsi!

İlham Əliyevin təhkiyəsindəki amiranəlik milli qürur və vüqarı dərindən dərk etməyin simvolu olmaqla yanaşı, həm də tarixin gedişinə, dəfələrlə təkrarlanan tarixin çarxına "dur" demək üçün vacibdir. Çünki tarix özünün təcrübə dərslərini adətən Şərqdə keçib, böyük eksperiment üçün siyasi-sosial poliqon axtararkən güdaza Azərbaycan verilib, qurban kimi Azərbaycan xalqı seçilib. Bütün geopolitik maraq və mənafelər bizim məkanda qovuşub və kəsişib. Bu gün miqyas ilk növbədə, İlham Əliyevin tarixə saldığı nəzərin ölçülərində dəyişib. Avropanı, Qərbi narahat edən, təşvişə salan bir də məsələnin bu tərəfidir. İlham Əliyev dünyanı bürüyən qırmızını - qan rəngini yaşılla - dirilik, harmoniya, İslam yolu, ədalət, sevgi və kamilliklə əvəzləməyin, bütün dünyanı məhz Yaşıl perspektivdə görmək istəyinin lideridir. Məsələnin bir də bu tərəfi onlara sərf eləmir. İstibdadın, zülmün əli ilə parçalanan, talan edilən, azadlığı əlindən alınan Azərbaycan yoxdur artıq. Əvəzində, ölkəsinin adını ən uca tribunalardan səsləndirməyə müvəffəq olan ölkə başçısının hünəri var. "Var millətimin imzası imzalar içində"! Bu sözü uca vurğu ilə söyləmək üçün İlham Əliyev az sınaq mərhələlərindən, az tarixi-siyasi aşamalardan keçmədi. İndiyə kimi bizim Azərbaycanla, Qarabağla, Qərbi Azərbaycanla bağlı həqiqətlərin dünya ictimai fikrinə çatdırılması istiqamətində gördüyümüz işin əsas üsulu və məzmunu dünya erməni təbliğatına verilən təkzib və təshihlərdən ibarət idi. Bu gün artıq onların təbliği istiqamətində sistemli iş strategiyası və miqyaslı, qlobal nəzəri-elmi konsepsiya səviyyəsində fəaliyyət proqramı və metodologiyası təşəkkül tapıb. Və ən yaxşı cəhət odur ki, bütövlükdə Azərbaycan mənəvi mədəniyyətinə məxsus humanitar-mədəni və etik-əxlaqi meyarlar bu proqramın düşüncə və iş mövqeyində qorunub saxlanır.

Qarabağ problemi barədə dünya fikrinin anti-Azərbaycan rənglərdən xilas olması məhz, İlham Əliyevin planet miqyaslı təbliğat və əməli fəaliyyətinin nəticəsidir. Əslində, son illərdə Prezident mücadiləsini iki cəbhədə aparıb: ön cəbhədəki vəziyyəti neytrallaşdırmaqla və erməni yalanlarına qarşı zərərsizləşdirmə işi aparmaqla. Hər iki cəbhədən ölkəmizə uzanmış əl, dil, silah müdaxilələrini dəf etməyə çalışaraq Azərbaycanın milli varlığını qorumaq amalına layiqincə xidmət göstərib. Çıxışlarının birində Prezidentin səsləndirdiyi bir fikrə diqqət çəkmək istəyirəm: "Hətta səndən güclü olan qüvvə qarşısında heç vaxt geri addım atmamalısan, hər zaman öz hüququnu qorumalısan, xüsusilə doğma torpağını qorumalısan". Bu gün İlham Əliyev xalqın tarixini və taleyini növbəti səhvlərdən qorumaq üçün sağlam ekologiya, mənəvi iqlim yaradır və bu işdə bütün milli-siyasi-intellektual potensialı ilə birlikdə dayanır. Amma tarixi bir qanunauyğunluğun bizə ötürdüyü ibrət dərsləri də az deyil. Bu dərslər sübut edir ki, hətta xalis torpaq məsələlərinə münasibətdə belə təkcə siyasi-intellektual fikir yox, həm də vicdan və mənəviyyat adlı bir elm də iştirak etməlidir. Bu gün İlham Əliyev ideya-fəlsəfi kompası, milli şüurla, milli tale ilə bağlı əxlaqi və mənəvi-vicdani təşəbbüsü bütünlükdə öz əlinə almağı bacarmışdır. O qədər ki, artıq bu mənəvi-vicdani təşəbbüsdən dünya üçün, bəşəriyyətin sabahı üçün narahatlığın miqyası görünür.



Məsələn, elə son faktlardan biri, Prezident İlham Əliyevin "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinə verdiyi müsahibə ölkə başçısının regionun, bütünlükdə isə dünya ilə bağlı narahatlığının izharı idi. Azərbaycan - Rusiya münasibətləri, Azərbaycan - Gürcüstan, Azərbaycan - Türkiyə, Azərbaycan - Ermənistan, Azərbaycan - Fransa və Azərbaycan - ABŞ arasında münasibətlərin diplomatik səviyyələrdə səciyyəsini meydana qoyan İlham Əliyev fərdi üslub, tərz, dəstxətt səpkisində ümumi müşahidələrin doğru-dəqiq analizini verdi. Əlbəttə, ölkə başçısı narahatdır. Amma bu narahatlıq erməniyə havadarlıq edib onu açıq şəkildə silahla təmin edən Fransa və Hindistana, yaxud gizli şəkildə həyata keçirən Amerika Birləşmiş Ştatlarına görə deyil. Ona qalsa qeyd etdiyi kimi, ölkənin hərbi büdcəsi rekord səviyyədədir, hər cür təxribatların qarşısını alacaq səriştə və əzmin rəhbəridir İlham Əliyev. Bəs nigaranlıq nə ilə bağlıdır?! Bəşəriyyətin sabahı üçün, bitməyən ədavət, göz yaşı, savaşlardan yorulmayan, qan tökməkdən əl çəkməyən qüvvələrin antihumanist davranışı üçün.

Bütün dostluq və qardaşlıq münasibətlərinə rəğmən dünya təəssüf ki, pislərdən, şərə, ədavətə qulluq edən qüvvələrdən xali deyil. Nə yazıq ki, bəşər yaranandan bu qaydanı pozmaq hələ heç kəsə müəssər olmayıb. Antitürk psixoz yaratmaq, müsəlman, türk əleyhinə səlib yürüşlərinə çağırmaq cəhdində erməni şovinizmi yenə də iş başındadır və xalqlar arasında təxribatda öz qədim peşələrinə sadiq qalırlar. Bunun əksinə olaraq, ölkə başçımız İlham Əliyev antihumanist, şovinist ənənəni hər zaman rədd edib. Səbəbi bəlkə də M.Ə.Sabirin bu misrası ilə ifadə eləmək daha dəqiq olar: "Kim ki, insanı sevər, - aşiqi hürriyyət olur"! Çünki İlham Əliyev özünü dünyanın bir parçası sayır və dünya salamat olacaqsa, bütün insanlıq, fərdlər, insanlar salamat olacaq, - ideyasını rəhbər tutur. Nəinki rəhbər tutur, hətta bu ideyanın siyasi-əxlaqi mahiyyətinə bu gün xüsusilə müasir səslənən klassik səciyyələr verir: "Əndazəsiz iddialar və Makron hökumətinin əsassız olaraq özünü böyük sayması bütün bunları uçuruma yuvarlatdı". Bu müşahidədəki təəssüf nidasını isə duymamaq mümkün deyil: "Fransa ola bilər ki, nə vaxtsa böyük ölkə, dahi mütəfəkkirlər, böyük alimlər, yazıçılar ölkəsi olub. Amma indi belə deyil".

Bir əsr öncə özünü "hüsnü-xuda şairi" elan edən Hüseyn Cavid "Kəssə hər kim tökülən qan izini, qurtaran dahi odur Yer üzünü", - deyirdi. Bir əsr sonra baş verən vüqeələri müşahidə edən biri kimi deyirəm: Əgər yer üzünü tək bircə nəfər - İlham Əliyev idarə etsəydi, arzu olunan Dahi işinin müəllifi elə özü olardı! Amma hələ ki, belə bir əlahiddəlik heç kimə nəsib olmayıb. Odur ki, qandan, xaosdan qidalananlara çalxantı yaratmaq, harmoniyaya xidmət edənlərə isə acımaq, ağrımaq, nigaran olmaq qalır: "Biz bütün öhdəliklərimizə maksimum dərəcədə məsuliyyətlə yanaşırıq və bundan sonra da belə edəcəyik. Düşünürəm ki, Azərbaycan da gərginliyin aradan qaldırılması işinə öz töhfəsini verə bilər, bir az unudulmuş sözdür, - gərginliyin azaldılması - "detente". Düşünürəm, bu sözə indi beynəlxalq leksikonda tələbat var və ümid edirəm ki, ondan istifadə olunacaq. Xarici siyasətinin xüsusiyyətlərinə görə istər Qərbdə, istərsə də Şərqdə Azərbaycan müstəqil xarici siyasət yürüdən tamamilə müstəqil aktor kimi qəbul edilir. Həm də ona görə ki, bu, eyni zamanda, həm Rusiyanın, həm də NATO üzvü Türkiyənin müttəfiqi olan yeganə ölkədir. Dünyada ikinci belə ölkə yoxdur".

Bu gün Qərb və ABŞ-ın Azərbaycana qarşı təzyiqlərinin kökündə dayanan amillər də məhz, bundan zəmin alır. Prezidentin müsahibəsində qeyd etdiyi kimi, Azərbaycanın müstəqil siyasət yürütməsi, beynəlxalq aləmdə artan nüfuzu, söz sahibi olması, etimad göstərilən dövlətə çevrilməsi reallığı. Bütün zamanlarda özünü supergüc, hegemon statusunda hiss edən və etdirməyə çalışan Qərbə, ABŞ dövlətinə, Fransaya bu sərf eləmir: "Onlar kiminsə onlara ədalət öyrətməsinə alışmayıblar. Onlar öyrəşiblər ki, hamıya özləri dərs versinlər. Onlar alışıblar ki, qarşılarında baş əyirlər, müəyyən məsələlərdə onlardan xahiş edirlər, onlarla məsləhətləşirlər, onların icazəsi olmadan heç nə etmirlər. Beləcə keçmiş kolonial, indi isə bəzi neokolonial ölkələr bu tərzdə yaşamağa və düşünməyə alışıblar. Bu, onların şüurunda dərin kök salıb".

Onlar həm də bizim 44 günlük Vətən müharibəsində qazandığımız zəfərlə və 2023-cü ilin sentyabrında keçirilmiş antiterror tədbirləri nəticəsində Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini təmin etməsi faktı ilə barışa bilmirlər. Ona görə ard-arda müxtəlif şəkildə təzyiq göstərməyə çalışırlar. Ölkəmiz əleyhinə qara piar aparır, məğlub və işğalçı ölkənin militarizasiyasına dəstək verir, Ermənistanda hərbi baza yaradır, ermənilərin təəssübünü çəkirlər. Ölkə başçısı yenə də xəbərdarlığını etdi: "Onlar İkinci Qarabağ müharibəsinin və 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatının nəticələrini unutmamalıdırlar. Həmçinin başa düşməlidirlər ki, Makron rejiminin, eləcə də ABŞ Dövlət Departamentinin maksimum dəstəyinə baxmayaraq, burada, bu yerdə bizə qarşı növbəti təxribat planlaşdırsalar, onlara heç kim kömək etməyəcək".

Bu gün ölkə başçısı elə strategiya əsasında hərəkət edir ki, Azərbaycana olan nüfuz, etimad artan, yüksələn xətlə özünün inkişaf dövrünü yaşayır. Dekabrın 19-da Azərbaycanın D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olması xəbəri bu etimadın ən mötəbərlərindən biri sayılmalıdır.

Bu gün təşkilat cəhətdən vahid orqanizm kimi birləşmək istiqamətində yeni addımlar atılır. Azərbaycanın D-8-ə üzv olması dünya siyasi sistemi ilə əlaqələri daha da gücləndirəcəkdir. İndi bizim üçün doğma Şərq - türk və islam arealı bu gün dünyada yeni bir kontekstə çevrilə bilər. Ən ali səviyyədə - ən müasir təşkilat modeli ilə Azərbaycanın həmin kontekstin yaranmasında fəal şəkildə iştirakı şübhə doğurmur. Çünki o prinsiplər ki, D-8 təşkilatının qayəsini təşkil edir, Azərbaycanın siyasi reallığı, dövlət olaraq baxış, yanaşma prioriteti həmin prinsiplərə uyğundur: "müharibə deyil, sülh; münaqişə deyil, dialoq; ikili standartlar deyil, ədalət; üstünlük deyil, bərabərlik; müstəmləkə deyil, ədalətli düzən; zülm və hökmranlıq deyil, insan haqları, azadlıq və demokratiya".

Ötən əsrin əvvəllərində milli triadamızın banisi Əli bəy Hüseynzadə "Türklər kimdir və kimlərdən ibarətdir" məqaləsində yazırdı ki, "... türklük və islam dairəsində tərəqqi etmək istəriz. Biz arzu edəriz ki, bizim tərəqqimizə baxıldıqda, ... türk və müsəlmanlar nə gözəl tərəqqi ediyorlar denilsin. Yoxsa "türklər, müsəlmanlar irtidad ediyor, firəngləşiyorlar" denilməsin!". Bu gün həmin arzu və ideallarin gerçəkləşdiyi tarixi yaşayırıq. İlham Əliyevin həm nəzəri, həm də əməli fəaliyyəti hərtərəfli, universal bir intibah şəxsiyyətini ifadə edir. Bu gün onun qədər miqyaslı məsələlər qaldıran, bütün İslam və Şərq hüdudlarında düşünən, Qərb tiranlarına meydan oxuyan siyasi-ictimai xadim göstərmək çətindir. "Firəngləşmə" təhlükəsini isə (elə mifini də!) İlham Əliyev ona qarşı mübarizə elan etməklə çoxdan tarixə qovuşdurub. Bir də, zavallı Fransa! İndi onun "Avropa sivilizasiya"sına qatası heç bir dəyəri də qalmayıb!

Çağdaş zamanda müttəfiqlərin sayının çox olması istənilən ölkənin gücünün göstəricilərindən biridir. Azərbaycan onsuz da dünya birliyində nüfuz qazanıb. D-8 təşkilatına üzv olması isə bir çox ölkələrlə ikitərəfli əməkdaşlığı daha da gücləndirəcək. Birliyə üzvlük ölkəmizə investisiya cəlb olunmasına, eyni zamanda Azərbaycan kapitalının həmin dövlətlərin iqtisadiyyatına yönəldilməsinə ciddi təkan verəcək. Bu təşkilata üzvlük ölkələr arasındakı mədəni, siyasi, humanitar sahədə də əməkdaşlıq körpülərinin qurulmasına vəsilə olacaq. Biz tarixən 3 dildə yaranan böyük mədəni, mədəni sərvətin sahibi olmuşuq və bu böyük irsdən bu gün də imtina etmirik. Azərbaycanda, müqəddəs türk torpağında yaranan bütün mənəvi-bəşəri sərvətlər də, müəllifinin etnik mənsubiyyətindən asılı olmayaraq, bizim ümumi sərvətimizdir. Bizim D-8-ə üzvlüyümüz ölkəmizin dostlar, müttəfiqlər dairəsini daha da gücləndirəcək, daim diri tutulan dostluq münasibətləri daha sistemli şəkildə dünyanın simasının müasirliyə, yeniliyə, inkişafa doğru dəyişilməsində təmələ çevrilməyi bacaracaqdır.

Bu məqamı xüsusi qeyd etmək istəyirəm. İlham Əliyevin təfəkkür tərzinə məxsus vüsətli, miqyaslı bir humanizm, və beynəlmiləlçilik, azadlıq anlayışları onu çağın liderləri sırasında fərqli edən amillərdəndir. Amma daha qiymətli və mənalı cəhət odur ki, İlham Əliyevin düşüncə tərzində və siyasi üslubunda yüksək bəşərilik yüksək milliliklə vəhdətdə təzahür edir. Bəlkə buna görə rəhbərlik etdiyi iyirmi ildən artıq zaman kəsimində ölkə başçısı İlham Əliyevin diplomatik səriştəsi sayəsində xalq öz milli kimliyindən ayrılmadı, keçmişindən qopmadı, dəyərlərini itirmədi, özünə, meyarlarına sadiqliyi qorudu. Milli məfkurə İlham Əliyevin varislik haqqına tapınaraq qoruduğu ən böyük sərvət oldu. İlham Əliyev 2008-ci ildə Bakıda İstiqlal Bəyannaməsini abidələşdirdi, türk qanlı, İslam imanlı, Avropa fikirli yeni gəncliyin öz varlığından, milli kimliyindən ayrılmaması üçün bayraq meydanlarını qurdu. Türk ruhunu mənəviyyatında daşıyan millət fədailərimizin irsinin qorunması, təbliği və təqdimi ilə bağlı ardıcıl sərəncamlar imzaladı. Əlimərdan bəy Topçubaşovun Parisdəki məzarını ziyarətgah halına gətirməsi, Məhəmməd Əmin Rəsulzadənin, Əli bəy Hüseynzadənin, Əlimərdan bəy Topçubaşovun, Fətəli Xan Xoyskinin, Əhməd bəy Ağaoğlunun ölkə miqyasında və dövlət səviyyəsində yubileylərinin keçirilməsinə, Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasının nəşrinə rəvac verməsi, hər biri böyük mədəni hərəkatın göstəricisinə çevrilən "İslam Həmrəyliyi ili", "Multikulturalizm ili", "Azərbaycan Cümhuriyyəti ili", "Nizami Gəncəvi ili", "İmadəddin Nəsimi ili", "Şuşa ili", "Heydər Əliyev ili" ilə bağlı qərarları da həmin humanitar düşüncə strategiyasının gerçəkləri sırasındadır. Bunlar Prezident İlham Əliyevin fikir həyatımızda oynadığı müstəsna məqamlar olmaqla yanaşı, bügünkü uğurlarımızın genetik kodlarını daşıyan amillərdir.

Gündən-günə yeniləşən, çağdaş dünya meridianlarında yerini tapan, Şərqdən Qərbə, Qərbdən Şərqə gedən yolların qovşağında hər gün daha da çox mərkəz, görüş, ünsiyyət məkanı rolunu oynayan, bəşəriyyətin taleyini düşünən ictimai-siyasi, tarixi-mədəni, qlobal, milli və multikultural ideyaların, ideologiyaların, müzakirə və tədbirlərin əsl sınaq meydanına çevrilən ən yeni Azərbaycanın obrazı Ümummilli lider Heydər Əliyevin ideya və ideallarının təcəssümü olaraq, ona adekvat bir əməli fəaliyyətin barı, bəhrəsi şəklində İlham Əliyevin müdrik zəkasında gerçəklik və təzahürünü yaşayır. Bu gün həyata keçirilən layihələr, gerçəkləşdirilən əməllər də İlham Əliyevin - bu unikal tarix qəhrəmanının simasında ən yeni Azərbaycanın qazandığı qlobal uğurları XXI əsrdə dünyanın hər yerindən görməyə imkan verir.



***ELNARƏ AKİMOVA***
***Milli Məclisin deputatı,***
***YAP İdarə Heyətinin üzvü,***
***filologiya elmləri doktoru***



# “Dini maarifləndirmənin aktual məsələləri: ənənə, təcrübə və perspektivlər” mövzusunda Azərbaycan din xadimləri Forumunun iştirakçılarına

**Hörmətli Forum iştirakçıları!**

Sizi - “Dini maarifləndirmənin aktual məsələləri: ənənə, təcrübə və perspektivlər” mövzusunda keçirilən Forumun iştirakçılarını salamlayıram.

Ayrı-ayrı dini etiqad və inanclara mənsub icmaların əmin-amanlıq şəraitində yaşadığı Azərbaycanda tarixən qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni münasibətlər sistemi formalaşmışdır. Yüz illərlə nümunəvi tolerantlıq ənənələrinin mövcud olduğu ölkəmizdə heç vaxt dini zəmində ayrı-seçkilik və qarşıdurma halları baş verməmişdir. Təsadüfi deyil ki, dünya dini liderlərinin mötəbər beynəlxalq tədbirlərinə uğurla ev sahibliyi edən Azərbaycan bu gün mədəniyyətlərarası əməkdaşlıq və dialoq məkanına çevrilmişdir.

Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub saxlanılması, zəngin multikulturalizm dəyərlərinin təbliği və təşviqi dövlət siyasətimizin başlıca istiqamətlərindən biridir. Ölkəmizdə din siyasəti demokratik, hüquqi, dünyəvi dövlətçilik prinsiplərinə və beynəlxalq normalara uyğun həyata keçirilir. Biz bu təcrübəni ictimai-siyasi sabitliyin və həmrəyliyin vacib amili kimi qiymətləndiririk.

Hazırda dünyada cərəyan edən mürəkkəb proseslər, dinin siyasi məqsədlər üçün vasitəyə çevrilməsi, ksenofobiya, ekstremizm, məzhəbçilik kimi mənfi təzahürlər beynəlxalq sülhə və əmin-amanlığa ciddi təhdidlər yaratmaqdadır. Belə təhlükəli amillərin vaxtında qarşısının alınması üçün dinin cəmiyyət həyatında yerinin və rolunun düzgün qiymətləndirilməsi, mənəvi-əxlaqi tərbiyə işinin təkmilləşdirilməsi, dini təhsil və maarifləndirmə istiqamətində fəaliyyətin gücləndirilməsi günümüzün zəruri məsələlərindəndir. Bu sahədə din xadimlərinin üzərinə böyük vəzifələr düşür.

Azərbaycanda müxtəlif konfessiyaları təmsil edən din adamlarının, ilahiyyatçıların, alim və mütəxəssislərin aktual problemlərin müzakirəsi ilə bağlı bir araya gəlməsini təqdirəlayiq hesab edirəm. Əminəm ki, toplantınız konstruktiv müzakirələr şəraitində keçəcək, ölkəmizdə dini maarifləndirmənin müasir tələblərə uyğun təşkilinə və mənəvi-əxlaqi dəyərlərin təbliğinə layiqli töhfə verəcəkdir.

Bir daha sizə ən xoş diləklərimi yetirir, Forumun işinə uğurlar arzulayıram.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri,***
***23 dekabr 2024-cü il***

# Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında yüksək səviyyəli əlaqələrin yeni rəmzi...

**Roma Papası Fransisk Həzrətlərinə**

Zati-müqəddəsləri,

Müqəddəs Milad bayramı münasibətilə Sizə və Sizin simanızda bütün həmməzhəblərinizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Mərhəmət, xeyirxahlıq kimi ülvi hissləri özündə təcəssüm etdirən, yeni ruh gətirən bu nurlu bayram özünün bütün məramı ilə insanlar arasında qarşılıqlı anlaşmanı, dəstəyi və birliyi tərənnüm edir. Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsi olan xristian icması tərəfindən bu bayramın daim xüsusi coşqu və yüksək əhval-ruhiyyə ilə qeyd edilməsi ölkəmizdə hökm sürən etnik-mədəni müxtəliflik, zəngin multikulturalizm ənənələrinin bariz təzahürüdür.

Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu, əsrlər boyu milli-mədəni rəngarənglik və tolerantlıq mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı etimad və hörmət şəraitində birgə yaşadığı nadir diyarlardan biridir. Biz bütün bunlarla fəxr edir və bu dəyərləri milli sərvət kimi qoruyuruq. Təsadüfi deyil ki, xalqlararası dostluğun və dinlərarası harmoniyanın, multikulturalizm və tolerantlıq ənənələrinin qorunması Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən olmaqla yanaşı ilk növbədə xalqımızın təbii yaşam tərzidir.

Müasir Azərbaycan cəmiyyətində xristian icmasının özünəməxsus yeri vardır. Yüz illər boyu Azərbaycanda məskunlaşıb vahid ailə kimi yaşayan xristian vətəndaşlarımız Vətənlərinin ictimai-siyasi və sosial-mədəni həyatının bütün sahələrində yaxından iştirak edərək doğma ölkəmizin rifahına böyük töhfələr verirlər. Ərazimizdə mövcud olan qədim xristian irsi, məbədlər, kilsələr və digər ibadət yerləri, məscidlər və sinaqoqlar kimi eyni səviyyədə Azərbaycan dövləti tərəfindən mühafizə olunur. Ölkəmiz eyni zamanda dünya mədəni irsinin incilərindən sayılan xristian abidələrinin qorunmasında fəal rol oynayaraq mədəniyyətlərarası dialoqu təşviq edir.

Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında formalaşmış münasibətlər bizi sevindirir. İkitərəfli əlaqələrimizin tarixi çoxsaylı qarşılıqlı səfərlər, daimi təmaslar və əlamətdar hadisələrlə zəngindir. Məmnunluqla



qeyd etmək istərdim ki, ölkəmizdə sayca ikinci olacaq və Papa II İohann Pavelin şərəfinə ucaldılacaq yeni katolik kilsəsi ölkəmizdə katolik dini icmasına göstərilən böyük diqqət və qayğının təzahürü, Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında yüksək səviyyəli əlaqələrin yeni rəmzidir.

Zati-müqəddəsləri,

Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında münasibətlərin möhkəmlənməsinə verdiyiniz töhfəyə görə Sizə təşəkkürümü bildirir, ölkəmizin multikulturalizm və tolerantlıq ənənələrini daim yüksək dəyərləndirdiyiniz üçün minnətdarlığımı ifadə edirəm.

Əminəm ki, Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı səmərəli əməkdaşlıq bundan sonra da dünyada dinlərarası və mədəniyyətlərarası anlaşmanın təşviqi, ümumbəşəri dəyərlərin qorunub saxlanması, insanlar arasında həmrəyliyin bərqərar olmasına xidmət edəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək Sizə doğum gününüz və qarşıdan gələn Yeni, 2025-ci il münasibətilə də ən səmimi təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, xeyirxah və müqəddəs missiyanızda uğurlar diləyirəm.

***Hörmətlə,***
***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

# Əməkdaşlıq və dialoq məkanı

Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu, əsrlər boyu milli-mədəni rəngarənglik və tolerantlıq mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı etimad və hörmət şəraitində birgə yaşadığı nadir diyarlardan biridir. Prezident İlham Əliyevin bu günlərdə həm “Dini maarifləndirmənin aktual məsələləri: ənənə, təcrübə və perspektivlər” mövzusunda Azərbaycan din xadimləri Forumunun iştirakçılarına, həm də Roma Papası Fransisk Həzrətlərinə Müqəddəs Milad bayramı münasibətilə təbrik məktubları ünvanlaması ölkəmizdə mədəniyyətlərarası dialoqa, multikulturalizmin təşviqinə necə böyük önəm verildiyini bir daha əyani şəkildə təsdiqləyir.

Bu, o anlama gəlir ki, Azərbaycanda ayrı-seçkiliyə yer yoxdur və bütün dinlərə böyük hörmətlə yanaşılır. “Ayrı-ayrı dini etiqad və inanclara mənsub icmaların əmin-amanlıq şəraitində yaşadığı Azərbaycanda tarixən qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni münasibətlər sistemi formalaşmışdır. Yüz illərlə nümunəvi tolerantlıq ənənələrinin mövcud olduğu ölkəmizdə heç vaxt dini zəmində ayrı-seçkilik və qarşıdurma halları baş verməmişdir. Təsadüfi deyil ki, dünya dini liderlərinin mötəbər beynəlxalq tədbirlərinə uğurla ev sahibliyi edən Azərbaycan bu gün mədəniyyətlərarası əməkdaşlıq və dialoq məkanına çevrilmişdir”, - deyə Prezident İlham Əliyev “Dini maarifləndirmənin aktual məsələləri: ənənə, təcrübə və perspektivlər” mövzusunda Azərbaycan din xadimləri Forumunun iştirakçılarına ünvanladığı məktubunda vurğulayıb.

## Dövlət siyasətinin mühüm istiqaməti - multikulturalizm

Hazırda dünyada müşahidə edilən bəzi proseslər ciddi narahatlıq doğurur. Ayrı-ayrı ölkələrdə dini-mədəni müxtəlifliyə dözümsüz yanaşmalar da bu sırada yer alır. Xüsusilə də Avropa məkanında cərəyan edən mürəkkəb proseslər, dinin siyasi məqsədlər üçün vasitəyə çevrilməsi, ksenofobiya, ekstremizm, məzhəbçilik kimi mənfi təzahürlər beynəlxalq sülhə və əmin-amanlığa ciddi təhdidlər yaratmaqdadır. Forum iştirakçılarına ünvanlanan məktubda da vurğulandığı kimi, belə təhlükəli amillərin vaxtında qarşısının alınması üçün dinin cəmiyyət həyatında yerinin və rolunun düzgün qiymətləndirilməsi, mənəvi-əxlaqi tərbiyə işinin təkmilləşdirilməsi, dini təhsil və maarifləndirmə istiqamətində fəaliyyətin gücləndirilməsi günümüzün zəruri məsələlərindəndir. Bu sahədə din xadimlərinin üzərinə böyük vəzifələr düşür.

Dünyadakı belə kədərli mənzərə fonunda Azərbaycan tolerantlıq baxımından nümunəvi bir məkan kimi diqqət mərkəzinə gəlir. Respublikamızda dövlət-din siyasəti yüksək səviyyədə qurulub. Məlumdur ki, Azərbaycan çoxkonfessiyalı cəmiyyətə malikdir. Dövlət-din siyasəti də məhz belə rəngarəngliyə uyğun qurulub. Ölkəmizdə bir tərəfdən insanların böyük əksəriyyətinin inam bəslədiyi İslam dininə aid dəyərlər qorunur. O cümlədən ölkə ərazisində İslam dininə aid abidələrin, məscidlərin, ibadətgahların bərpası istiqamətində mühüm işlər görülüb.

Eyni zamanda, respublikamızda digər dinlərə də böyük hörmət bəslənilir, burada fərqli etiqad daşıyıcısı olan insanlar özlərini çox rahat hiss edirlər. Azərbaycanda multikulturalizm tarixdən gələn bir ənənədir və bu gün də qorunub saxlanılır. Qısaca desək, ölkəmizdə multikulturalizm həm cəmiyyətin istəyidir, həm də dövlət siyasətidir. Forum iştirakçılarına ünvanladığı məktubunda buna xüsusi diqqət çəkən Prezident İlham Əliyev “Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub saxlanılması, zəngin multikulturalizm dəyərlərinin təbliği və təşviqi dövlət siyasətimizin başlıca istiqamətlərindən biridir. Ölkəmizdə din siyasəti demokratik, hüquqi, dünyəvi dövlətçilik prinsiplərinə və beynəlxalq normalara uyğun həyata keçirilir. Biz bu təcrübəni ictimai-siyasi sabitliyin və həmrəyliyin vacib amili kimi




qiymətləndiririk”, - deyə bildirib.

Vurğulamaq yerinə düşər ki, hazırda dünyada İlham Əliyev kimi tolerantlıq ideyalarının qorunub saxlanılmasına və daha da zənginləşdirlməsinə səmimi şəkildə çağırışlar edən liderlərin sayı elə də çox deyil. 2008-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə başladılmış, mədəniyyətlərarası dialoq sahəsində yeganə qlobal platforma olan “Bakı Prosesi” mənəvi-mədəni dəyərlərin və multikulturalizmin təbliği baxımından xüsusi əhəmiyyət kəsb edir. Artıq qlobal hərəkata çevrilmiş “Bakı Prosesi” çərçivəsində respublikamızda müntəzəm olaraq müxtəlif tədbirlər həyata keçirilir. Xatırladaq ki, 2024-cü ilin may ayında Bakı sayca altıncı Mədəniyyətlərarası Dialoq Forumuna ev sahibliyi edib.

## Azərbaycanla Müqəddəs Taxt-Tac arasında formalaşmış xoş münasibətlər

Müstəqil Azərbaycanla Müqəddəs Taxt-Tac arasında siyasi dialoq geniş məzmuna malikdir. Azərbaycan dövlətinin həyata keçirdiyi ardıcıl multikultural siyasət Vatikanda yüksək dəyərləndirilir. Prezident İlham Əliyev Roma Papası Fransisk Həzrətlərinə ünvanladığı məktubunda Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında formalaşmış münasibətlərin sevindirici olduğunu bildirib. “İkitərəfli əlaqələrimizin tarixi çoxsaylı qarşılıqlı səfərlər, daimi təmaslar və əlamətdar hadisələrlə zəngindir. Məmnunluqla qeyd etmək istərdim ki, ölkəmizdə sayca ikinci olacaq və Papa II İohann Pavelin şərəfinə ucaldılacaq yeni katolik kilsəsi ölkəmizdə katolik dini icmasına göstərilən böyük diqqət və qayğının təzahürü, Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında yüksək səviyyəli əlaqələrin yeni rəmzidir”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Bu məqamda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da Vatikanla əməkdaşlığın genişənməsinə davamlı töhfələr verdiyini xüsusi vurğulamaq yerinə düşərdi. İndiyədək Fond tərəfindən Müqəddəs Taxt-Tacda çoxsaylı layihələr reallaşdırılıb. Təsadüfi deyil ki, Mehriban xanım Əliyeva Vatikanda Papa Cəngavər Ordeninin ən ali dərəcəsinə - IX Piy Ordeninin Böyük Xaçına (Dama di Gran Croce dell’ordine Piano) layiq görülüb. O, bu ordenə mədəniyyətin, o cümlədən Müqəddəs Taxt-Tac təsisatları ilə qarşılıqlı əlaqələrin inkişafına verdiyi töhfələrə görə layiq görülüb.

Həm Azərbaycan, həm də Müqəddəs Taxt-Tac gələcəkdə də xoş mərama əsaslanan sıx əməkdaşlığı davam etdirmək niyyətindədirlər. Cari ilin sentyabr ayında Vatikan şəhəri dövləti üzrə qubernatorluq ilə Heydər Əliyev Fondu arasında Müqəddəs Pavel Bazilikasında bərpa işlərinə dair müqavilə imzalanıb. Sənədi Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və Vatikan şəhəri dövləti üzrə qubernatorluğun prezidenti, kardinal Fernando Vergez Alzaqa imzalayıblar.

***Mübariz ABDULLAYEV***

# “Dini maarifləndirmənin aktual məsələləri: ənənə, təcrübə və perspektivlər”

## Azərbaycan Din Xadimlərinin Forumu keçirilib

Dekabrın 23-də Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə “Dini maarifləndirmənin aktual məsələləri: ənənə, təcrübə və perspektivlər” mövzusunda Azərbaycan Din Xadimlərinin Forumu keçirilib. Forumda dövlət qurumlarının rəsmi şəxsləri, ilahiyyatçı alim və mütəxəssislər, eləcə də respublikamızın müxtəlif regionlarından gələn fərqli konfessiyalara mənsub 100-dən çox din xadimi iştirak edib. Forum dini təhdidlər haqqında cəmiyyətin məlumatlandırılması, dini maarifləndirmə prosesində din xadimlərinin rolunun artırılması, eyni zamanda, dini icmaların və din xadimlərinin fəaliyyəti, qarşılaşdıqları çətinliklər barədə rəy və təkliflərin öyrənilməsi məqsədi daşıyır.

Əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib, Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin Forumun iştirakçılarına müraciətini oxuyub.

Tədbirdə Azərbaycan Respublikası ərazisindəki dini ibadət yerləri, ziyarətgahlar, qəbiristanlıqlar, ixtisaslaşdırılmış satış məntəqələri, ölkədə fəaliyyət göstərən din xadimləri haqqında informasiya bazasının sistemləşdirilmiş formada toplandığı vahid elektron xidmətlər portalı olan AMİN (Azerbaijan Multi-



cultural Information Network) layihəsinin videotəqdimatı keçirilib.

Çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov bildirib ki, Azərbaycan müxtəlif etnik və dini icmaların birgə yaşadığı, ortaq dəyərləri bölüşdüyü, sivilizasiyalar arasında mənəvi körpü rolu oynayan unikal məkandır. Heydər Əliyevin əsasını qoyduğu dövlət-din münasibətləri modeli tarixi ənənələrə və ümumbəşəri dəyərlərə istinad edir. Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu siyasətin mərkəzində dini, etnik mənsubiyyət deyil, insan amili dayanır.

Onun sözlərinə görə, dövlətimizi güclü edən əsas amillərdən biri, heç şübhəsiz, multikultural ənənələrimizlə yanaşı, milli-mənəvi dəyərlərimizi qorumağımızdır. Komitə sədri qeyd edib ki, azərbaycanlıların təfəkküründə, tarixi yaddaşında digər xalq və inanclara dözümsüzlük təcrübəsi yoxdur. Bizim üçün etnik və dini müxtəliflik ayırıcı xətt deyil, birləşdirici, qarşılıqlı dialoqu təşviq edən faktordur.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə isə deyib ki, dünyanın gərgin siyasi mənzərəsi fonunda Azərbaycanda ictimai-siyasi sabitlik hökm sürür: “Bu, Azərbaycan Prezidentinin müdrik daxili və uzaqgörən xarici siyasətinin bəhrələridir. Dini-mənəvi sahədə uğurlarımız dövlətimizin dünyaya örnək multikultural siyasi xətti, dinlərarası əməkdaşlıq, məzhəblərarası anlaşma mühiti ilə bağlıdır”.

Onun sözlərinə görə, ölkə rəhbərinin qlobal ideya və insan həmrəyliyinə xidmət edən müdrik təşəbbüslərinin təbliği yönündə din xadimlərinin fəallığı, cəmiyyətin həyatında yaxından iştirakı önəmli məsələlərdəndir: “Azad olunmuş torpaqlarımızda yenidən inşa olunmuş məscidlərimizdə ucalan azan səsləri qürur mənbəyimizdir. Eyni zamanda, ölkəmiz dünyada dinlərarası və məzhəblərarası anlaşmanın nadir nümunəsinə malik dövlət kimi tanınır və təqdir edilir”.

Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov bildirib ki, Azərbaycan bütün dünyaya həm dini tolerantlıq, həm də multikulturalizmin mərkəzi kimi təqdim edilir. O qeyd edib ki, Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycanda bütün sahələrdə, xüsusilə suverenliyin və ərazi bütövlüyünün tam təmin olunması ilə tarixi nailiyyətlər əldə edilib.

Əli Əhmədov bu



reallıqlar fonunda dini baxışların və insanların dinə münasibəti sayəsində Azərbaycanın transformasiya dövrünü yaşadığını diqqətə çatdırıb.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli isə qedy edib ki, dünya ölkələrində gedən proseslər aydın şəkildə göstərir ki, sabitliyin və mənəvi kamilliyinin təmin olunmasının əsas amilləri içərisində din xüsusi əhəmiyyətə malikdir. Harada ki, bu proses dövlət səviyyəsində tolerant, multikultural baxışlarla təmin olunur, həmin cəmiyyətlərdə bütövlük var, inkişaf var.

Akademik deyib ki, Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət-din münasibətləri Azərbaycan cəmiyyətinin bütövlüyünə, ölkəmizdə dini tərbiyənin əsaslarına, mənəvi kamilləşmənin mühüm prinsiplərindən birinə çevrilib. Ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə qurulan yeni cəmiyyətin və Azərbaycanın bütövlüyünün təmin olunmasının əsas amillərindən biri kimi məhz ölkədə aparılan düzgün dövlət-din siyasəti həlledici rol oynayıb.

Çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, dünyanın coğrafi, geosiyasi, iqtisadi, xüsusilə də insan resursları ilə zəngin olan əhəmiyyətli bir coğrafiyasında yerləşən Azərbaycanın milli-mənəvi və dini-mədəni irsi qədim tariximizə və ənənələrimizə söykənir: “Ölkəmizdə müxtəlif dinlər və konfessiyalara məxsus xalqlar və etnik qruplar daim sülh şəraitində yaşayıb və bu əsasda formalaşmış birgəyaşayış modelinin özünəməxsus unikallığı qorunub saxlanılıb. Bu isə öz növbəsində bizim malik olduğumuz və haqlı olaraq hər zaman qürur duyduğumuz multikulturalizm və tolerantlıq dəyərlərinin əsasını təşkil edib”.

Komitə sədri deyib ki, Azərbaycan dövlətinin əsaslandığı dünyəvilik prinsipləri milli və dini dəyərlərin əhəmiyyətini xüsusi vurğulamaqla onu həyatımızın əsas məzmunu, ailə institutunun isə dayağı kimi müəyyən edir. “Bu baxımdan Azərbaycan ailə modeli də milli identikliyin və dini dəyərlərin üzərində qurulub. Bu dəyərlərin düzgün təbliği isə ailə institutunu hər cür kənar təsirlərdən qoruyur. Odur ki, dini maarifləndirmə işi yalnız dini icmalar və ibadət ocaqları ilə məhdudlaşmayaraq müvafiq dövlət orqanlarının da fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir”, - deyə B.Muradova vurğulayıb.

Tədbirdə digər çıxış edənlər də mövzu ilə bağlı fikirlərini bildiriblər.

Tədbir çərçivəsində, həmçinin “Qərbi Azərbaycan: xəritələr, eksponatlar, abidələr, deportasiya” mövzusuna həsr olunan fotosərgi nümayiş etdirilib.

***Nardar BAYRAMLI***

# "Liderliyin Zəfər formulu: xalqa şərəfli xidmət nümunəsi"

Dekabrın 23-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının və Nəsimi rayon təşkilatının birgə təşkilatçılığı ilə "Liderliyin Zəfər formulu: xalqa şərəfli xidmət nümunəsi" mövzusunda tədbir keçirilib.

Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, zəngin idarəçilik təcrübəsinə, dönməz əqidəyə, xalqın birmənalı dəstəyinə - yüksək etimadına malik lideri olan dövlətlər möhtəşəm nailiyyətlərə imza ataraq adlarını tarixə əbədi həkk ediriblər. Onun sözlərinə görə, Şərqdə ilk demokratik respublika yaratmış və 33 il əvvəl öz müstəqilliyini bərpa etmiş Azərbaycanın təcrübəsi də bu baxımdan əlamətdardır: "Çağdaş Azərbaycan reallığı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əbədiyaşar ideyaları ilə bağlıdır. Heydər Əliyev milli maraqlara əsaslanan uzaqgörən siyasəti ilə Azərbaycanın müstəqilliyinin daimiliyi, dönməzliyi və əbədiliyini təmin etməklə xalqımıza çoxsaylı uğurlar qazandırmışdır. Bu gün iftixarla qeyd edirik ki, hər birimizin sonsuz qürur mənbəyi olan müasir Azərbaycan dövləti Heydər Əliyevin millətimizə ən böyük mənəvi-siyasi mirasıdır".

Tahir Budaqov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin Ulu Öndərin tükənməz dövlətçilik irsini müasir çağırışlara uyğun zənginləşdirərək həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində misilsiz nailiyyətlər əldə edilmiş, xalq-iqtidar birliyi daha da möhkəmlənmiş, Azərbaycan regionda lider dövlətə çevrilmiş, dünyada etibarlı və konstruktiv tərəfdaş kimi tanınmışdır: "Ən əsası, iqtisadi gücünü, siyasi nüfuzunu, hərbi qüdrətini artıran, beynəlxalq mövqeyini möhkəmləndirən Azərbaycan öz ərazi bütövlüyü və suverenliyini bərpa etməklə Zəfər zirvəsinə yüksəlmişdir. Ata vəsiyyətini və xalqa verdiyi bütün vədləri şərəflə yerinə yetirən Prezident İlham Əliyev Azərbaycanı Ulu Öndərimizin görmək istədiyi qalib və qüdrətli dövlətə çevirməklə bərabər, strateji hədəfləri ardıcıl olaraq gerçəkləşdirərək nəinki ölkəmiz, bütövlükdə regionumuz üçün yeni perspektivlər yaratmışdır".

YAP Sədrinin müavini deyib ki, qazanılan tarixi nailiyyətlərlə yanaşı, qarşımızda gələcəyə yönəlik çox önəmli vəzifələr durur: "Dünyada qlobal kataklizmlərlə müşayiət olunan gərgin geosiyasi proseslərin baş verdiyi, yeni çağırışların meydana çıxdığı bir dönəmdə Azərbaycan Prezidentinin müstəqil və qətiyyətli siyasəti ölkəmizdə ictimai-siyasi sabitliyin və milli birliyin qorunmasına, sosial-iqtisadi inkişafın davam etməsinə, əhalinin rifahının daha da yaxşılaşmasına, Qarabağ və Şərqi Zəngəzura Böyük Qayıdışın uğurla həyata keçirilməsinə və nəhayət, bölgədə sülh, təhlükəsizlik və çoxşaxəli əməkdaşlığın bərqərar olmasına hədəflənmişdir. Azərbaycanın bugünlərdə D-8 təşkilatına yekdilliklə üzv seçilməsi də bunun növbəti bariz təzahürüdür. Şübhə yoxdur ki, öz Müzəffər Liderinin ətrafında sıx birləşən xalqımız bundan sonra da milli məqsədlərə nail olaraq daha qüdrətli Azərbaycan naminə yeni qələbələrə imza atacaqdır".

"Tariximizin bu şanlı dövründə yaşayıb yaratmaq hər bir azərbaycanlı üçün hədsiz xoşbəxtliklə bərabər, həm də böyük məsuliyyətdir. Hər birinizə dövlətimiz və xalqımızın firavan gələcəyi naminə möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız, partiyamızın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə müqəddəs amallara doğru bu şərəfli yolda inam və əzmlə addımlamağı arzulayır, fürsətdən istifadə edərək qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə hər birinizi səmimi-qəlbdən təbrik edir, möhkəm cansağlığı və fəaliyyətinizdə yeni nailiyyətlər arzulayıram. Yaşasın müstəqil və qalib Azərbaycan! Eşq olsun Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə!", - deyə YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb.

YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov çıxışında bildirib ki, dövlət idarəçiliyində sözlə əməlin vəhdəti uğurlu inkişafın əsası olmaqla bərabər, həm də sosial sabitliyin möhkəmləndirilməsi, davamlı yüksəlişin təmin edilməsi və vətəndaş cəmiyyətinin bərqərar olması sahəsində mühüm amildir: "Prezident İlham Əliyevin "Bizim sözümüz imzamız qədər dəyərlidir" fikri Onun verdiyi vədlərin əməli fəaliyyətində öz əksini tapdığını göstərir. Dövlətimizin başçısının xalqa verdiyi vədləri yerinə yetirməsinin ən parlaq nümunəsi torpaqlarımızın işğaldan azad olunması və üçrəngli bayrağımızın bütün ərazilərimizdə ucaldılmasıdır".

"Hər bir azərbaycanlının Prezidenti olacağını vəd edən və ötən müddət ərzində sözünün sahibi olduğunu əməli işi, genişmiqyaslı fəaliyyəti ilə sübuta yetirən cənab İlham Əliyev xalqın yüksək rəğbət və məhəbbətini qazanıb. Dövlət başçısının Azərbaycanın milli maraqlarını daim və hər yerdə uca tutması xalqımızı Onun ətrafında sıx birləşdirib. Zəfər seçkisində cənab İlham Əliyevin növbəti dəfə Azərbaycan Prezidenti seçilməsi bunun bariz nümunəsidir, - deyə YAP Veteranlar Şurasının üzvü əlavə edib.

V.Novruzov qeyd edib ki, Prezident İlham Əliyevin söz ilə əməlin vəhdətinə verdiyi önəm ölkənin inkişafında, eləcə də milli maraqların qorunmasında da öz əksini tapır: "Bu yanaşma Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə və xalqın rifahının yüksəlməsinə xidmət edir. Prezident İlham Əliyevin ölkəmizə iqtisadi, siyasi və sosial dividendlər qazandırmış daxili və xarici siyasəti qloballaşma dövründə xüsusi önəm kəsb edir. Dövlət başçısının siyasəti Azərbaycanı dünyada sabitlik adasına, geosiyasi inteqrasiya və multikulturalizm mərkəzinə, qlobal tədbir və görüşlərin keçirildiyi təhlükəsiz məkana çevirib".

"Əminliklə demək olar ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər Azərbaycanın daha da güclənməsinə xidmət edəcək. Yeni Azərbaycan Partiyasının hər bir üzvü də bu amal uğrunda fəal rol oynamalıdır", - deyə YAP Veteranlar Şurasının üzvü vurğulayıb.

Çıxış edən Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli bildirib ki, tarixi şəxsiyyətlər öz əməlləri ilə xalqların taleyində müstəsna rol oynayırlar: "Belə şəxsiyyətlərdən biri dünya şöhrətli siyasətçi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi varisi - Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevdir".

Onun sözlərinə görə, uzun illər beynəlxalq təşkilatların, xüsusilə də BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilmədiyi bir şəraitdə Azərbaycan böyük iradə və qətiyyət nümayiş etdirdi: "Prezident İlham Əliyevin uzaqgörən siyasəti və prinsipial mövqeyi nəticəsində Azərbaycan təkcə hərb cəbhəsində deyil, eyni zamanda, diplomatik müstəvidə də tarixi qələbə qazandı. Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən "Dəmir yumruq" əməliyyatı uzun illər işğalda qalan torpaqlarımızın azad olunmasını təmin etdi. Bu, nəinki Azərbaycanın ərazi bütövlüyünün bərpası, həm də beynəlxalq hüququn və tarixi ədalətin təntənəsi oldu".

G.Gəraybəyli qeyd edib ki, bu gün Azərbaycan hər bir istiqamətdə, o cümlədən təhsil, səhiyyə və gənclərin inkişafı sahəsində davamlı olaraq irəliləyişlər əldə edir: "Ölkəmizdə sağlam, savadlı və milli dəyərlərə sadiq gənclər yetişir ki, bu da cəmiyyətimizin üstün göstəricilərindən biridir. Gənclərin sağlam həyat tərzi keçirmələri, onların fiziki və psixoloji cəhətdən sağlam yetişmələri üçün zəruri addımlar atılmaqdadır".

Çıxış edən YAP Gənclər Birliyinin üzvü, Milli Məclisin deputatı Səbinə Xasayeva bildirib ki, bu gün Azərbaycan düşünülmüş siyasət sayəsində mühüm nailiyyətlərə imza atır: "Dün-

davamı 5-ci səhifədə












# "Liderliyin Zəfər formulu: xalqa şərəfli xidmət nümunəsi"











əvvəli 4-cü səhifədə

yada gedən proseslər və mürəkkəb geosiyasi vəziyyət fonunda əldə edilmiş nəticələr deməyə əsas verir ki, Azərbaycan uğurla inkişaf edir. Ən önəmli amillərdən biri olan ictimai-siyasi sabitlik qətiyyətlə qorunur".

Onun sözlərinə görə, Prezident İlham Əliyevin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən biri 30 ilə yaxın işğal altında olmuş torpaqlarımızın düşmən tapdağından azad edilməsidir: "Azərbaycan torpaqlarını öz gücü hesabına azad etdi. Baxmayaraq ki, İkinci Qarabağ müharibəsindən əvvəl hər fürsətdə biz dünya ictimaiyyətini işğal faktı, ədalətsizlik, beynəlxalq hüququn pozulması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl olunmaması barədə məlumatlandırmışdıq, lakin onlar təcavüzkarı cəzalandırmaq əvəzinə, ikili standartlara davam etmək yolunu seçdilər. Bütün bunlara rəğmən, Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən siyasət nəticəsində sonda ədalət zəfər çaldı".

Ölkəmizdə həyata keçirilən dövlət gənclər siyasətindən bəhs edən S.Xasayeva qeyd edib ki, 1993-cü ildə Ulu Öndərin xalqın tələbi ilə Azərbaycanda hakimiyyətə gəlməsindən sonra diqqət yetirilən əsas məsələlərdən biri də məhz gənclər siyasəti idi. Onun sözlərinə görə, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Cəmiyyətin dinamik qüvvələrinin, o cümlədən gənclərin enerjisinin ümummilli məqsədlərə yönləndirilməsi üçün sistemli fəaliyyət aparılır. Bu gün ölkəmizdə həyata keçirilən siyasətin mühüm istiqamətlərindən biri gənclərin cəmiyyətin müxtəlif sahələrində yüksək fəallığının təmin olunması və onların milli-mənəvi dəyərlər əsasında, vətənpərvərlik ruhunda tərbiyə edilməsidir. Dövlət başçısı tərəfindən gənclərə göstərilən bu yüksək diqqət Azərbaycanın parlaq gələcəyini inşa edir".

"Bu gün hər birimiz ölkəmizin ərazi bütövlüyü ilə yanaşı, həm də milli qürurumuzu bərpa edən Liderimiz-Prezident İlham Əliyevə minnətdarıq və bundan sonrakı mərhələdə daha böyük uğurlara çatacağımıza inanırıq", - deyə S.Xasayeva vurğulayıb.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.



# Serbiyanın Səfirlər Müşavirəsində...

## Ceyhun Bayramov çıxışı zamanı enerji layihələrinin önəmini vurğulayıb

*Nardar BAYRAMLI*

Azərbaycan xarici siyasətində Serbiya Respublikası ilə əməkdaşlıq vacib yer tutur. Serbiya Avropa məkanında ölkəmizin strateji tərəfdaşlarından biridir. Ötən illər ərzində qarşılıqlı əlaqələr yüksələn xətlə inkişaf edib. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun bu ölkənin dəvəti əsasında Serbiyanın Səfirlər Müşavirəsində iştirakı və çıxışı da dostluq münasibətlərinin göstəricisidir.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, Ceyhun Bayramov çıxışı zamanı Azərbaycan-Serbiya strateji tərəfdaşlığının siyasi, iqtisadi, enerji, humanitar aspektlərindən, ölkələrimizi birləşdirən ümumi çağırışlar və onlarla mübarizədə ortaq yanaşmamızdan ətraflı bəhs edib. İki ölkə arasında 30 ilə yaxın tarixi olan diplomatik münasibətlərin bu gün Azərbaycan və Serbiya rəhbərliyinin birbaşa iştirakı ilə özünü əməldə, çoxşaxəli strateji tərəfdaşlıqda göstərdiyi qeyd olunub.

Azərbaycan və Serbiya arasında Strateji Tərəfdaşlıq Şurası, Azərbaycan ilə Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya, habelə siyasi məsləhətləşmələr mexanizminin əməkdaşlığın inkişafında vacib rolundan bəhs edilib.

Nazir çıxışında ölkələrimiz arasında enerji təhlükəsizliyi sahəsində əməkdaşlığın perspektivlərindən danışıb, Azərbaycanın Avropada enerji diversifikasiyasının transformasiyasında oynadığı rolun əhəmiyyətini, o cümlədən cari ildə qaz ixracı sahəsində Serbiya ilə əməkdaşlığın başlanmasını vurğulayıb. Eləcə də, "yaşıl enerji" sahəsinin ölkəmizin prioritetlərindən biri olduğu, bu istiqamətdə Qara dəniz sualtı enerji kabeli layihəsi, Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında "yaşıl enerji" sahəsində strateji tərəfdaşlıq kimi təşəbbüslərin Xəzər və Qara dəniz hövzələrindən keçməklə Avropa və Mərkəzi Asiyanın əlaqələndirilməsində mühüm addımlar olduğu diqqətə çatdırılıb.

C.Bayramov, həmçinin bu il ölkəmizdə keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) nəticələri barədə Müşavirə iştirakçılarını ətraflı məlumatlandıraraq, yeni iqlim maliyyəsi hədəfinin razılaşdırılması, Paris sazişinin 6-cı maddəsi üzrə danışıqların yekunlaşdırılması, İtki və Zərər Fondunun fəaliyyətə başlaması üçün hazır vəziyyətə gətirilməsi istiqamətində əldə olunan uğurların qlobal iqlim gündəliyində əhəmiyyətindən bəhs edib.

Eyni zamanda, Azərbaycan və Serbiyanı birləşdirən ortaq xüsusiyyətlər qismində ölkələrimiz arasında ərazi ölçüsü, əhali sayı, xalqlarımız arasında mövcud tarixi bağlar ilə yanaşı, təxminən eyni tarixi dövrdə müstəqillik qazanan hər iki ölkənin beynəlxalq hüququn selektiv tətbiqinə məruz qaldığı, ölkələrimizin ikili standartlar problemi ilə üzləşdiyi bildirilib. XİN başçısının çıxışında həmçinin, ölkələrimizin xarici aktorlara arxalanmamağın, geosiyasi qarşıdurmalarda tərəf olmamağın, manipulyasiya və müdaxilələrdən qaçmaq üçün birbaşa danışıqlara üstünlük verilməsinin əhəmiyyətini anladığı qeyd edilib. Bu baxımdan Azərbaycanın və Serbiyanın xarici siyasətində eyni dəyərləri, xüsusilə ərazi bütövlüyü və suverenliyə daimi dəstəyi rəhbər tutmasının və bunun davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Tədbirdə Serbiyanın xarici işlər naziri Marko Curiç, XİN-in kollektivi, bu ölkənin xaricdəki səfirləri, habelə Serbiya parlamentinin sədri Ana Brnabiç iştirak ediblər.

Yeri gəlmişkən, səfər çərçivəsində Ceyhun Bayramov serbiyalı həmkarı Marko Curiç ilə də görüşüb. Geniştərkibli görüş zamanı nazirlər Azərbaycan-Serbiya strateji tərəfdaşlığının müxtəlif aspektləri, o cümlədən regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparıblar. İki ölkə arasında qarşılıqlı hörmət və etibarlı tərəfdaşlığa, beynəlxalq hüququn əsas norma və prinsiplərinə, xüsusilə suverenlik və ərazi bütövlüyünün qarşılıqlı dəstəklənməsinə əsaslanan strateji tərəfdaşlığın inkişafından məmnunluq ifadə olunub.

Strateji tərəfdaşlığın inkişafına töhfə verən amillər arasında ali və yüksək səviyyəli qarşılıqlı səfərlərin, liderlər arasında dostluğun əhəmiyyəti vurğulanıb. İki ölkə arasında enerji təhlükəsizliyi, nəqliyyat, mədəniyyət, turizm sahələri üzrə əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub, iqtisadiyyat, ticarət və investisiya istiqamətləri üzrə əməkdaşlığın inkişafının zəruriliyi vurğulanıb. Regional və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək və həmrəyliyin bundan sonra da davam etdirilməsinin əhəmiyyəti qeyd olunub.

Qarşı tərəf, həmçinin işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələr, habelə Azərbaycan ilə Ermənistan arasında normallaşma və sülh prosesinin hazırkı vəziyyəti barədə ətraflı məlumatlandırılıb. Sülh müqaviləsində açıq qalan bəndlər üzrə razılığın əldə olunması, Ermənistan Konstitusiyasında ölkəmizin ərazi bütövlüyünə yönələn iddialara son qoyulmasının sülh prosesinə hədə törədən mövcud çağırışların aradan qaldırılması üçün əhəmiyyəti qeyd edilib. Bununla yanaşı, ATƏT çərçivəsində Minsk qrupunun rəsmi olaraq ləğvinə Ermənistanın maneçilik səylərinin sülh prosesinə zidd olduğu diqqətə çatdırılıb.

Bununla yanaşı, görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

Daha sonra mətbuat konfransında nazirlər görüşün nəticələrinə dair bəyanatlarla çıxış ediblər.

# D-8 “İslam doqquzluğu”na çevrilir

## Azərbaycanın bu təşkilata üzv olması ölkələr arasında iqtisadi-ticari, nəqliyyat-kommunikasiya potensiallarını böyüdəcək

Məlum olduğu kimi dekabrın 19-da Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan 8 ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammiti zamanı Azərbaycan Respublikası yekdilliklə D-8 təşkilatının üzvü seçilib. Bu, olduqca mühüm siyasi-iqtisadi hadisə olmaqla, Azərbaycanın yürütdüyü unikal diplomatiyanın növbəti uğuru kimi səciyyələndirilə bilər. Bu, eyni zamanda, regional və qlobal təşkilatlarda ardıcıl olaraq öz layiqli yerini tutan respublikamıza tərəfdaş ölkələrin dərin etimad və etibarının təzahürüdür.

“İslam Səkkizliyi” adlanan D-8 formatı siyasi nüfuzu ilə yanaşı, həm də böyük iqtisadi potensiala malik təsisat kimi mühüm statusa malikdir. Türkiyənin təşəbbüsü ilə 1996-cı il oktyabrın 22-də İstanbulda qurulan, Banqladeş, İndoneziya, İran, Malayziya, Misir, Nigeriya, Pakistan və hazırda Azərbaycanı öz sıralarında birləşdirən D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı faktiki olaraq bundan sonra “İslam doqquzluğu”na çevrilmiş olur. Təşkilat regionda qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, iqtisadi və ticarət, nəqliyyat, kommunikasiya və bir sıra digər vacib istiqamətlərdə əlaqələrin inkişafında mühüm əhəmiyyət kəsb edir. Həmçinin, Şərqlə Qərb arasında iqtisadi-ticari körpü, nəqliyyat və kommunikasiyaların vəhdətində bu qurumun təsiretmə imkanları böyükdür. Təşkilatın birləşdirdiyi ölkələrdə 1,2 milyard insan yaşayır, iqtisadiyyatlarının həcmi 4 trilyon dollardır. Eyni zamanda, üzv ölkələrin ümumini ticarətlərinin həcmi 1,8 trilyon dollar təşkil etməklə, ümumdünya ticarətində 5 faiz paya malik olduğunu təsdiqləyir.

Azərbaycanın qoşulmasından sonra D-8-in iqtisadiyyatının dəyəri ən azı 100 milyard dollar, ticari mübadilənin həcmi 50 milyard dollar artmış olacaq. Eyni zamanda, sərmayələrdə və regional yük daşınmalarında, logistika mübadilələrində də əhəmiyyətli dinamika yaranacaq.

## D-8-ə qoşulmaq Azərbaycana nə vəd edir?

Öncə vurğulayaq ki, rəsmi Bakı qlobal və regional təşkilatlara hansısa siyasi maraqlar bucağından yox, iqtisadi mənafe və bərabərhüquqlu təmsilçiliyə əsaslanan tərəfdaşlıq, qarşılıqlı etimad və anlaşma, inteqrasiya rakursundan yanaşır. Respublikamız indiyə qədər üzv olduğu və yaxud tərəfdaş kimi cəlb edildiyi bütün təsisatlarda yalnız səmərəverici və faydalı əməkdaşlıq töhfələri ilə yadda qalıb, Avropa və Asiya ölkələrinə, Qoşulmama Hərəkatına üzv dövlətlərə enerji və qeyri-enerji ixraclarında iqtisadi həmrəyliyə əsaslanan müsbət dinamikalar gətirib. Həmçinin, ölkəmiz İslam Əməkdaşlıq Təşkilatında hər zaman nümunəvi addımları ilə yeni baxış və məzmun gətirib, sivilizasiyalararası dialoqa, humanitar əməkdaşlığa, sülh təşəbbüslərinin təşviqinə töhfə verib. Bütün platformalara açıq ölkə kimi Azərbaycan nümunəvi iqtisadi davranışı ilə hörmət və etibar qazanıb.

Bu baxımdan, D-8 təşkilatı Azərbaycanın qlobal dünya ilə balanslaşdırılmış və çoxşaxəli siyasətinin müsbət nəticələrini, eləcə də artan resurs və tranzit imkanlarını nəzərə alaraq bu ailənin üzv olmasını yeni şans və fürsət kimi dəyərləndirir. D-8-də təmsil olunmaq Azərbaycan yaxın tərəfdaşları ilə iqtisadi əlaqələri yeni mərhələyə qaldırmaq, həm ikitərəfli, həm də regional və beynəlxalq çərçivədə temasları artırmaq, mübadilələri intensivləşdirmək üçün dərin zəminlər yaradır. Azərbaycanın onsuz da D-8 ölkələrinin hər biri ilə ikitərəfli və beynəlxalq qurumlar çərçivəsində çox yaxşı münasibətlərə malikdir. Ancaq bu qurumda öz layiqli yerini aldıqdan sonra iqtisadi dinamika üçün əlavə qapılar açılmış olacaq.

Xüsusilə də təşkilatın lider iqtisadi gücü olan Türkiyə ilə Azərbaycan iqtisadi-ticari dövriyyəni durmadan artırır, digər tərəfdaş ölkələrlə müxtəlif iqtisadi güzəşt və ticarət razılaşmaları əsasında əmtəə mübadilələrini böyüdür. Azərbaycan və Türkiyənin enerji, nəqliyyat, ticarət və digər sahələrdə əlaqələrinin genişlənməsi təkcə iki ölkə arasında iqtisadi inkişafa deyil, həm də D-8 coğrafiyasında yer alan ölkələrin də rifah və iqtisadi həmrəyliyinin möhkəmlənməsi üçün nümunəvi formatın yaradılmasına səbəb olacaq. Bir sözlə, yeni hədəflərin gerçəkləşməsində D-8 alternativ platforma kimi əsaslı




stimullar yaradacaq.

Nəticə etibarilə Azərbaycan bu klubda öz iqtisadi resurs coğrafiyasını genişləndirəcək, Asiya, Orta Şərq və Şimal-Qərbi Afrikaya qədər geniş coğrafi ərazilərdə iqtisadi proqramlarının əhatəsini böyüdəcək. Eyni zamanda, ölkəmizin bu təşkilatın üzvləri ilə ticarət əlaqələrini diversifikasiya etmək, yeni bazarlar və sərmayə imkanları tapmaq üçün axtarışları da müsbət nəticə verəcək.

## Azərbaycan regionun iqtisadi-nəqliyyat coğrafiyasını da yeniləyəcək

Azərbaycan D-8 çərçivəsində qlobal nəqliyyat tranzitlərini də əlaqələndirməkdə yeni fürsətlər əldə edə bilər. Bu alyansın bir çox üzvü böyük tranzit daşıyıcılığı potensialına malikdir, İran Şimal-Cənub nəqliyyat dəhlizinin müəlliflərindən biridir. Nəzərə alsaq ki, bu qlobal dəhlizə inteqrasiya prosesləri son ildə daha da güclənib, layihə Orta və Mərkəzi Asiya ölkələri üçün də xüsusi maraq doğurur. Dəhlizə qoşulan Hindistan əlavə daşınmalara inteqrasiya üçün yeni qovşaqlar inşa edir. Eləcə də Pakistan və digər ölkələrin də marağı böyükdür. Pakistanın Rusiyadakı səfiri Məhəmməd Xalid Camali bildirib ki, sözügedən dəhlizə qoşulmaq üçün müvafiq iqtisadi-hüquqi prosedurlar başlayıb. Rəsmi İslamabad Şimal-Cənub dəhlizi ilə hazırda potensial 1 milyard dollar dəyərində ticarət daşınmalarını təmin etməkdədir, ticarət həcmlərini daha da artırmaq imkanları nəzərdən keçirilir. Ümumiyyətlə, Pakistan bölgədəki bütün transkommunikasiya xətlərinin iqtisadi səmərəliliyinə xüsusi önəm verir və Orta Dəhlizə də inteqrasiyanı dəstəkləyən ölkələrdən biridir.

Türkiyə və Azərbaycanın xüsusi strateji qərar tutduğu Orta Dəhlizin beynəlxalq transkommunikasiya arteriyası kimi böyüməsi gələcəkdə Orta Şərq və Afrika regionun da dəniz nəqliyyatlarının inteqrasiyasını sürətləndirə bilər. Bu baxımdan Misir, Nigeriya və digər ölkələrin də qlobal tranzitlərə çıxışı üçün fürsətlər açılmış olardı.

Beləliklə, Azərbaycanın genişşaxəli dəhlizlər formatı bu ölkələrin strateji maraqları ilə üst-üstə düşdüyündən bölgədəki kommunikasiyaların hərəkətliliyində də yeni impulslar yaranacaq. Şübhəsiz, D-8 formatında yer alan ölkələr həm Şərq-Qərb, həm də Şimal-Cənub dəhlizlərində sıx əməkdaşlığı gücləndirməklə İslam dünyasının iqtisadi-logistika potensialını bir zəncirdə birləşdirməyə və “İslam doqquzluğu” geonəqliyyat coğrafiyasında strateji qərarlar vermək gücünü təmin etməyə nail olacaq.

*ELBRUS CƏFƏRLİ*

# Qlobal nəqliyyat körpüsü

## Orta Dəhliz beynəlxalq ticarətin çevikliyini artıran “Digital Hub”a çevrilir

Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının (IRU) baş katibi Umberto de Pretto “Report”a müsahibəsində Orta Dəhlizin inkişaf perspektivlərindən danışarkən vurğulayıb ki, Çin və Avropa arasında nəqliyyat körpüsünə çevrilən Orta Dəhliz beynəlxalq yükdaşımalar üçün strateji əhəmiyyətini dayanmadan artırmaqdadır. Geosiyasi dəyişikliklər və ənənəvi marşrutlardakı məhdudiyyətlər bu dəhlizi qlobal ticarət və logistika sektorunun diqqət mərkəzinə gətirməkdədir. Dünyada daşınma və logistika üzrə ixtisaslaşmış nəhəng beynəlxalq şirkətlərin əksəriyyəti səmtini alternativ marşrut kimi Orta Dəhlizə yönəldir.

U. Prettonun fikrincə, Orta Dəhlizin miqyası və coğrafi hüdudları o qədər geniş və cəlbedicidir ki, vahid iqtisadi zona kimi optimallaşdırılması aktuallaşıb. Ona görə də qlobal tərəfdaşlar dəhlizin tam potensialını hərəkətə gətirmək üçün həllini gözləyən məsələləri nəzərə almalıdır. Belə ki, gömrük-sərhəd keçid məntəqələrində tıxaclara və yüklərin daşınma müddətində gecikmələrə səbəb olan texniki-fiziki amillərin aradan qaldırılması, gömrük və sərhəd infrastrukturlarının təkmilləşdirilməsi, sərhəd məntəqələrində prosedurların rəqəmsallaşdırmasının artırılması istiqamətində addımlar atılmalıdır. Nəticədə, bu tədbirlərin həyata keçirilməsi Orta Dəhlizin potensialının tam şəkildə reallaşmasına və meqanəqliyyat arteriyasına çevrilməsinə səbəb olacaq.

## TIR elektron bəyannamə sistemi gömrük risklərini azaldır




Qeyd edək ki, Orta Dəhlizin iştirakçısı olan ölkələr də həmin prioritet çağırışları vacib sayır. 2024-cü ilin əvvəlindən indiyədək keçirilən işçi qrupun iclaslarında bu istiqamətində birgə səylərin əlaqələndirilməsi qərara alınıb. Əsas təşəbbüslərdən biri də nəqliyyat axıcılığının rentabelliyini təmin etmək üçün TIR sisteminin effektiv tətbiqidir. TIR elektron bəyannamə sistemi (TIR-EPD) bir çox ölkədə gömrük risklərinin daha dəqiq qiymətləndirilməsinə və aşağı riskli daşımaların sürətləndirilməsinə imkan verən unikal model kimi tətbiq olunmaqdadır. Bu sistem yükdaşımaların daha təhlükəsiz və sürətli həyata keçirilməsinə şərait yaradır. Eyni zamanda, bu rəqəmsal infrastruktur müxtəlif nəqliyyat növləri arasında əlaqələndirməni təmin etməklə tranzitin sürətini və etibarlılığını artırır.

**Qardaş Türkiyənin Yaxın və Orta Şərq bölgələrini birləşdirən tranzit xətlərində bu modelin tətbiqi neçə ildir ki, öz mühüm üstünlüyünü göstərməkdədir. Bu baxımdan Orta Dəhliz ailəsinin üzvlərindən biri kimi Türkiyə təcrübəsi tərəflər üçün əhəmiyyət kəsb edə bilər. Hazırda Mərkəzi Asiya ölkələri TIR zolaqlarının yaradılması və E-TIR sisteminin genişləndirilməsi kimi təşəbbüsləri dəstəkləyərək tərəfdaşlarla digər vahid rəqəmsal imkanları nəzərdən keçirir**

Qardaş Türkiyənin Yaxın və Orta Şərq bölgələrini birləşdirən tranzit xətlərində bu modelin tətbiqi neçə ildir ki, öz mühüm üstünlüyünü göstərməkdədir. Bu baxımdan Orta Dəhliz ailəsinin üzvlərindən biri kimi Türkiyə təcrübəsi tərəflər üçün əhəmiyyət kəsb edə bilər. Hazırda Mərkəzi Asiya ölkələri TIR zolaqlarının yaradılması və E-TIR sisteminin genişləndirilməsi kimi təşəbbüsləri dəstəkləyərək tərəfdaşlarla digər vahid rəqəmsal imkanları nəzərdən keçirir.

## Azərbaycan “Ro-Pax” nəhəng bərə-gəmilərini Orta Dəhlizə cəlb edib

Orta Dəhlizin ən strateji həlqələrindən biri olan Xəzər dənizi üzərindən yükdaşımaların səmərəliliyinin artırılması üçün də müasir rəqəmsal layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Xüsusilə də rəqəmsal texnologiyaların tətbiqi yolu ilə səmərəliliyin yaxşılaşdırılması, təmiz ekoloji nəqliyyat şəbəkələrinin yaradılması, bir sözlə Orta Dəhlizin “yaşıl koridor”a çevrilməsi planlaşdırılır. Həmçinin, daşınmalarda çevik və dinamik “Ro-Pax” tipli gəmi bərələrinin sayının artırılması və mövcud infrastrukturun təkmilləşdirilməsi istiqamətində işlər aparılmaqdadır.

Yeri gəlmişkən, Azərbaycan son illərdə Orta Dəhlizin tərkib hissəsi olan nəqliyyat-logistika infrastrukturunun tamamilə yeniləyib, nəqliyyat dəhlizlərinin səmərəliliyinin təmin edilməsi istiqamətində mühüm işlər görüb, Bakı Beynəlxalq Dəniz Ticarət Limanında elektron idaretmə sistemini formalaşdırıb. Həmçinin, Xəzər Dəniz Gəmiçiliyi Bakı Gəmiqayırma Zavodunda 3 “Ro-Pax” bərə-gəmi inşa edib, həmin gəmilərin 2-si neçə aydır ki, Orta Dəhliz üzrə yükdaşımaların həyata keçirilməsində uğurla istismar olunur, 3-cü bərə-gəmi isə yaxın günlərdə istifadəyə hazır olacaq. Digər Xəzəryanı ölkələr də eyni tipli gəmi infrastrukturlarının sayını artırmaq üçün səylərini artırıb.

## Maliyyə təşkilatları dəhlizin rəqəmsallaşmasına donorluq edir

Göründüyü kimi, bütün tərəfdaş ölkələr Orta Dəhliz boyunca sərhədlərarası institusional çərçivənin yaradılması, beynəlxalq standartlara uyğunlaşma və dövlət-özəl sektor əməkdaşlığının genişləndirilməsi istiqamətində fasiləsiz addımlar atmaqdadır. Eləcə də, müasir nəqliyyat daşıyıcılarının əldə edilməsi, liman və logistika mərkəzlərinin yaradılması, rəqəmsal sistemlərin inkişaf etdirilməsi və elektrin optikanın əlaqələndirilməsi üçün tələb olunan maliyyə vəsaitlərinin təmin edilməsində beynəlxalq maliyyə institutları ilə danışıqlar intensivləşib. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və digər təşkilatlar dəhlizin genişləndirilməsi layihələrinə maliyyə donorluğuna razılıqlarını bəyan edib.

Bütün bu addımlar yaxın illərdə Orta Dəhlizin qlobal nəqliyyat arteriyası ilə yanaşı, beynəlxalq ticarətin çevikliyini artıran “Digital Hub”a və iqtisadi platformaya çevriləcəyini şərtləndirir.

*E.CƏFƏRLİ*

# Tramp - Putin görüşü baş tutacaqmı?

Məlum olduğu kimi, Tramp hələ seçkiqabağı təşviqat kampaniyasında prezident seçiləcəyi təqdirdə Rusiya-Ukrayna müharibəsini tez bir zamanda bitirəcəyi vədini vermişdi. Trampın arzusu təmin edilib - o artıq ABŞ Prezidentidir və gələn il yanvarın 20-dən Ağ Evdə vəzifəsinin icrasına başlayacaq. Bəs prezidentlik iddiası təmin olunan Tramp “müharibəni bitirəcəyəm” vədini yerinə yetirəcəkmi və bunu necə edəcək?

## Putinlə görüşə bəslənən ümidlər

Trampla Putin 8 il bundan əvvəl görüşüblər. Ötən müddətdə dünyada və Rusiya - ABŞ münasibətlərində çox şey dəyişib. Bununla belə, indiki şəraitdə dünya, eləcə də liderlərin özləri də yeni görüşə böyük ehtiyac olduğu qənaətindən çıxış edirlər. Bu günlərdə Tramp belə bir görüş niyyətində olduğunu dilə gətirib. “Rusiya-Ukrayna münaqişəsinin həlli üçün Rusiya Prezidenti Vladimir Putinlə görüş keçirmək fürsətini gözləyirəm”, - deyə Ağ Evin yeni sahibi bildirib. Tramp həmçinin Putinin də onunla tez bir zamanda görüşmək istədiyini vurğulayıb: “Prezident Putin mənimlə tez bir zamanda görüşmək istədiyini söyləyib. Ona görə də biz bunu gözləməliyik, amma bu müharibəni bitirməliyik”.

ABŞ-ın yeni lideri Rusiya-Ukrayna münaqişəsini dəhşətli adlandırıb və həmçinin təkrarlayıb ki, Ağ Evin hazırkı rəhbəri Co Baydenin yerinə prezident olsaydı, bu, baş verməzdi.

Moskvanın Trampın “müharibəni bitirəcəyəm” məzmunlu vədinə yanaşması bütövlükdə pozitivdir. Öz növbəsində Putin ABŞ-ın yeni seçilmiş prezidenti ilə görüşə hazır olduğunu bəyan edib. “Mən onunla nə vaxt görüşəcəyimizi bilmirəm. Çünki o bu barədə heç nə demir. Mən onunla dörd ildən çoxdur, ümumiyyətlə, danışmamışam. Əlbəttə, istənilən vaxt onunla görüşməyə və danışmağa hazıram”, - deyə Putin dekabrın 19-da Moskvada “Qostinıy Dvor” sərgi mərkəzində jurnalistlərlə ənənəvi böyük mətbuat konfransında vurğulayıb.

Təbii ki, müharibənin bitməsi ssenarisində liderlərin görüşü çox vacibdir. Görüşün səmərəli və nəticəyönümlü olması isə əsas şərtdir. Artıq Ağ Evin yeni administrasiyası təfərrüatları öyrənməyə, tərəflərin mövqelərini dəqiqləşdirməyə və əlavə məlumatlar toplamağa start verib. Verilən məlumata görə, Trampın Ukrayna üzrə xüsusi elçi vəzifəsinə namizədi Keyt Kelloq yanvarda Kiyevə səfərindən sonra Moskvaya da səfər edə bilər.

Agentliyin qaynağı qeyd edib ki, Keyt Kelloq səfər zamanı London, Paris və Romaya da getməyi planlaşdırır. Onun sözlərinə görə, səfər konkret siyasi məqsədi həyata keçirmək üçün deyil, məlumat toplamaq məqsədi daşıyacaq. Bundan əvvəl isə Kelloqun Moskvaya səfər etmək planının olmadığı bildirilirdi. Görünür, Moskvadan gələn müsbət siqnallar nəzərə alınmaqla xüsusi elçinin səfər marşrutuna Moskvanın da daxil edilməsi gündəmə gəlib. Öz növbəsində Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov bildirib ki, Moskva ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın administrasiyasının Ukrayna istiqamətində hansı siyasəti aparacağını izləyəcək. “Gəlin, seçilmiş prezident Trampın inauqurasiyasını gözləyək. Görək bu yeni administrasiyanın siyasəti Rusiya istiqamətində, Ukrayna istiqamətində necə formalaşacaq. İndi müəyyən əlaqələr üçün cədvəllər və ya planlar haqqında danışmaq üçün heç bir səbəb yoxdur”, - deyə Ryabkov vurğulayıb.

## “Tramp planı”...

Trampın “müharibəni bitirəcəyəm” əminliyi səbəbsiz deyil. ABŞ son üç ildə Ukraynanın əsas dəstəkçisi qismində çıxış edib. Əgər ötən dövrdə Kiyev uğursuzluqlara baxmayaraq, cəbhədə müqavimət qabiliyyətini hələ də saxlayırsa, buna görə ilk növbədə Vaşinqtona borcludur. Tramp da bunun fərqindədir. O, Vaşinqtonun Kiyevə təsir imkanlarını nəzərə almaqla “müharibəni bitirəcəyəm” əminliyini ifadə edib.

Müharibəni bitirməyin “Tramp planı” heç də Ukraynanın bütün istəklərinin yerinə yetirilməsi anlamına gəlmir. Hələlik rəsmi Kiyev ölkənin ərazi bütövlüyü, NATO çətiri altında təhlükəsizlik qarantı alınması mövqeyində qalsa da, aydın şəkildə başa düşülür ki, bu şərtlərlə müvəqqəti və yaxud daimi sülh mümkün olmayacaq. Çünki Kiyevin mövqeyində Moskvanın “qırmızı xətt” saydığı məqamlar var və sahədə üstün durumda olan bir ölkənin reallıqlardan vaz keçəcəyi ehtimalı sıfıra bərabərdir. Elə “Tramp planı”nda da cəbhədəki hazırkı vəziyyətin bu və ya digər dərəcədə nəzərə alındığı bildirilir. “El Pais” nəşrinin yaydığı məlumata görə, Tramp Zelenskiyə mesaj göndərərək, atəşkəs və işğal olunmuş ərazilərdən imtina barədə düşünməyə çağırıb. Trampın fikrincə, Ukraynanın torpaqlarını geri almaq istəyini söyləmək asan olsa da, bir çox şəhər artıq ciddi şəkildə dağılıb. “Torpağınızı geri almaq istədiyinizi söyləmək yaxşıdır, amma şəhərlər əsasən dağılıb. Bu şəhərlərin bəzilərinə baxırsan, yaxşı vəziyyətdə olan bir dənə də olsun bina qalmayıb. Bəs siz “ölkəni bərpa edəcəyik” dedikdə... Nəyi bərpa edəcəksiniz? Bu, 110 illik bir rekonstruksiya olacaq”, - deyə Tramp vurğulayıb.

“El Pais” nəşrinin məlumatının səhihliyinə inansaq, əslində Tramp Kiyevdən sülh üçün ərazi itkiləri ilə barışmağı təklif edir. Mövcud reallıqları, o cümlədən də Kiyevin Vaşinqtonun dəstəyini itirəcəyi ehtimalını nəzərə aldıqda Ukraynanın nə qədər çətin durumda olduğu barədə konkret təsəvvür yaranır.

Bu arada Trampın Ukrayna müharibəsini bitirmək və “qarşılıqlı faydalı razılaşma əldə etmək” üçün Arktikadan strateji vasitə kimi istifadə etməyi planlaşdıra biləcəyi barədə xəbərlər də yayılıb. Bu barədə “Responsible Statecraft” nəşri məlumat verib.

Məlumatda bildirilir ki, Arktika Rusiya iqtisadiyyatı üçün böyük əhəmiyyətə malikdir. Ölkənin ÜDM-nin 10 faizi və ixracatının 20 faiz i bu bölgədən əldə edilir.

Tramp Şimal Dəniz Yolundan əldə ediləcək gəlirin bir hissəsinin Ukraynanın bərpası üçün təzminat kimi istifadə olunmasını təklif edə bilər. Bu gəlirlər əsasən Qərb şirkətləri tərəfindən qazanıla bilər.

Nəşr əlavə edir ki, bu yanaşma ABŞ, Kanada, Çin kimi ölkələri marşrutun inkişafına cəlb etməklə həm iqtisadi stimulları gücləndirəcək, həm də müharibənin sona çatmasına töhfə verə bilər.

*Mübariz FEYİZLİ*



**Trampla Putin 8 il bundan əvvəl görüşüblər. Ötən müddətdə dünyada və Rusiya-ABŞ münasibətlərində çox şey dəyişib. Bununla belə, indiki şəraitdə dünya, eləcə də liderlərin özləri də yeni görüşə böyük ehtiyac olduğu qənaətindən çıxış edirlər. Bu günlərdə Tramp belə bir görüş niyyətində olduğunu dilə gətirib. “Rusiya-Ukrayna münaqişəsinin həlli üçün Rusiya Prezidenti Vladimir Putinlə görüş keçirmək fürsətini gözləyirəm”, - deyə Ağ Evin yeni sahibi bildirib**

# Şərab şüşəsində saxlanan zaman

## Rey Bredberinin “Zəncirotu çaxırı” romanı haqqında

**əvvəli ötən sayımızda**

Arvadı Linanın etirazına baxmayaraq zərgər Leo Aufman iki həftə qarajdan çıxmadan xoşbəxtlik makinası icad eləyir. Bu müddətdə Leo uşaqlarıyla ünsiyyət saxlamır, iki həftədə onun arvadı xeyli kökəlir, özü isə arıqlayıb sınıxır. Valideynlərindən gizli sehirli maşının içinə girib oradakı uzaq mənzərələri yaxından görən evin böyük oğlu Saul gecə çimir çalmayıb səhərəcən ağlayır. Ərinin uşaq doğa bilməyən, qocanı cavanlaşdırmayan, insanı ölümdən sığortalamayan ixtirasını “kədər maşını” adlandıran Lina ertəsi gün özü nəhəng qutunun içində oturub Parisin, Romanın xoşbəxt həyatından mənzərələrə tamaşa eləyir. Bu epizodlar oğlu kimi ona da qəm gətirir, çünki xoşbəxtlik maşını gündəlik ailə qayğılarıyla məsud, asudə yaşayan qadına heç vaxt Parisdə, Romada olmadığını, heç vaxt da olmayacağını, iyirmi ildir rəqs eləmədiyini, gəncliyini çoxdan itirdiyini xatırladıb. Lina ərinin səhvlərini onun üzünə belə oxuyur:

“Deyimmi sən nədə yanılmısan, Leo: sən ən vacib məsələni unutmusan - gec-tez mən bu andırın içindən çıxıb çirkli qab-qacağı, kirli pal-paltarı yumalıyam. Neçə ki orada oturmusan, qürub uzandıqca uzanır, havası da çox sərin, çox ətirlidir, bunlara söz yox. İstədiyin mənzərəyə uzun-uzadı, doyunca baxa bilərsən. Bayırda isə uşaqlar nahar gözləyir, birinin şalvarı yırtılıb, o birinin düyməsi qopub. Bir də gəl əyri oturub düz danışaq: qüruba nə qədər tamaşa eləmək olar? Kimə lazımdır qürubun sonsuza qədər uzanması? Daimi sərinlik kimin nəyinə gərəkdir? Solmayan ətir nəyə lazımdır? Bunların hansına alışsan, bir az keçmiş onu sadəcə hiss eləməyəcəksən. Qürubdan bir dəqiqə, uzağı iki dəqiqə zövq alarsan. Sonra könlün başqa mənzərə istəyəcək. Belə yaranıb insan, Leo... Sən bir əməllə iki səhvə yol vermisən: əvvəla, ötəri bir halı uzatdıqca uzatmısan; ikincisi, bizim həyətimizə sığmayası bir dünyanı bu qutunun içinə yerləşdirmisən, Parisi, Romanı buralara gətirmisən...”

Rey Bredberinin televizora baxmaqdan xoşlanmadığını (sonralar bir televiziya kanalıyla birgə layihə həyata keçirdi, həmin layihə yazıçıya da, kanala da böyük şöhrət qazandırdı) nəzərə alsaq, Linanın bu monoloqunu müəllifin vizual ixtiraya qarşı çıxışı kimi də dəyərləndirmək olar. Təbiət (təbiilik) yenə mədəniyyətə (süniliyə) üstün gəlir.

Leo Aufman öz ixtirasının qoynunda şirin zövqə daldığı vaxt xoşbəxtlik maşını yanır, yanğın söndürülənə zərgərin ixtirasından geriyə yalnız xoşbəxtliyin külü qalır. Axşam evdə oynaşan balalarını, onlara şam yeməyi hazırlayan arvadını görəndə zər qədrini bilən zərgər, nəhayət, anlayır ki, əsl bəxtəvərlik nədir, anlayır ki, əslində, xoşbəxtlik maşını min illər əvvəl kəşf olunub - o maşını insan daim sinəsində gəzdirir.

***

Elen Bentli keçmişindən çətin qopan qadındır, ona ötən günləri xatırladan nə varsa, qoruyub saxlamağa çalışır: köhnə patefon valları, vaxtı keçmiş biletlər, teatr proqramları, uşaqlıq paltarları... Bir gün o, evinin qarşısındakı çəmənlikdə oynayan üç uşağı - Elis, Ceyn, bir də Tom Spoldinqi söhbətə tutur, onları dondurmaya qonaq eləyir. Missis Bentli uşaqlara öz uşaqlığından danışmaq istəyəndə balaca qonaqları bu yaşlı qadının nə vaxtsa uşaq olduğuna inanmırlar. Qoca Elen inciyib onlara uşaqlıq şəklini, indiyəcən saxladığı uşaqlıq əşyalarını göstərirsə də, qonaqlar yenə qarının dediklərinə şəkk eləyirlər; onların fikrincə, qocalar elə qoca kimi dünyaya gəlir, heç vaxt körpə olmurlar.

Uşaqlarla söhbəti Elen Bentlini sarsıdır. Onun gəncliyinin şahidləri artıq dünyada yoxdur, axıra qalan əriydi, bir neçə il qabaq o da köçünü sürüb. O rəhmətlik də onu həmişə keçmişdən asılıb qaldığına görə qınayardı: “Əzizim, sən heç cür başa düşmək istəmirsən ki, zaman yerində saymır. Sən həmişə əvvəlkitək qalmağa çalışırsan, ancaq bu, mümkün deyil, bugünkü sən dünənki sən deyilsən. Bu köhnə biletləri, teatr proqramlarını nədən ötrü saxlayırsan? Bunlar sənə yalnız qəm-qüssə gətirəcək, hamısını tulla getsin... Keçmişə nə qədər dartınsan da, bu gün nəsənsə, osan. Zaman insanları hipnoz vəziyyətinə salır. Hər yaşda adam elə bilir ki, həmişə bu yaşda olub, bu yaşda da qalacaq. İnsan həmişə öz indisində yaşayıb, bundan qırağa çıxmayıb, çıxa bilməz də. Köhnəkürüş şeyləri qoruyub saxlamaq özünü aldatmaqdır... Fotoşəkillər? Onlar da bizi aldadır...”

Ertəsi gün missis Bentli keçmişindən qalan xatirələri uşaqlara paylayır. Artıq bu qoca qarının nə keçmişi var, nə gələcəyi. Onu yalnız miskin bir indiki zaman yaşadır. Keçmiş də, gələcək də illüziyadır, gerçək olan yalnız zamanın indisidir. Ancaq onu da tutmaq, əldə saxlamaq mümkün deyil. “İndi” dediyimiz zaman şərtidir, əslində, zamanın indisi də olmur. Demək, üç zamanın üçü də xəyaldır, xülyadır, təxəyyül məhsuludur. Əlac yenə zamanı konservləşdirən zəncirotu şərabına qalır.

***

Çarlinin köməyilə Duqlas “zaman maşını” tapıb. Yataq xəstəsi olan polkovnik Frileyi onlar belə adlandırırlar. Di gəl, bu maşınla yalnız keçmiş zamana səyahət eləmək olur. Uşaqlar tez-tez qoca polkovnikə baş çəkib onun bələdçiliyi sayəsində əlli, altmış, yetmiş il əvvələ qayıdırlar, vəhşi qərbə səfərlərin, hindularla kovboylar arasında döyüşlərin qiyabi şahidinə çevrilirlər.

Polkovnik Frileyin övladları on ildir yatağından qalxmayan atalarına baxıcı tutublar. Xəstə çarpayıdan sürüşüb düşməsin deyə baxıcı qadın evdən çıxanda telefonu ondan uzağa aparır. Məsələ burasındadır ki, Frileyin gəncliyinin ən parlaq çağları Mexiko şəhərində keçib. İndi oralara qoca polkovnikin əli çatmır. Bircə bununla təsəlli tapır ki, orada yaşayan cavanlıq dostuna ara-sıra zəng vurub ondan telefonun dəstəyini küçəyə tutmağı xahiş eləyir. Mexiko küçəsinin hay-küyü qulaqlarına dolduqca polkovnik yenidən iyirmi beş yaşına qayıdır, özünü o küçədə gəzən kimi təsəvvür eləyir.

Ancaq keçmişə səyahət təhlükəlidir, keçmiş ölüm, yoxluq deməkdir, insan o yoxluqdan dönməyə bilər. Qoca polkovnik də ahıl yaşa keçmişini öldürə-öldürə çatıb, indi də keçmişi onu öldürür. Telefon əlində keçmiş günləri dinşəyən Friley elə o keçmişin qoynundaca canını tapşırır.

***

Azad, məsud yay günlərinin birində Duqlasın ən sevimli dostu Con Hav elan eləyir ki, atası başqa şəhərdə özünə iş tapıb, axşam saat doqquzda yola düşəsi qatarla onlar Qrintaundan birdəfəlik köçürlər. Duqlası bu ağır xəbər möhkəm sarsıdır, o, zamanı saxlamağın, ya da heç olmasa ləngitməyin yollarını aramağa başlayır.

Duqlas bu qənaətə gəlir ki, insan ora-bura çovuduqca, qaçdıqca zaman da onunla birlikdə qaçır, demək, bir yerdə donub qalmaqla, ətrafda baş verən hər hərəkəti sakitcə seyrə dalmaqla zamanı ləngitmək olar (Şərqi Asiyanın asketik təlimlərini xatırladır). Oğlan uşaq ağlıyla tapdığı bu düsturu həyata tətbiq eləmək üçün oyun qurur: oyunun mahiyyəti budur ki, hamı durduğu yerdə heykəltək donub qalmalıdır, kim çox duruş gətirsə, qalib də o sayılacaq. Məqsəd zamanı ləngitmək, dostun gedişini yubatmaqdır.

Ancaq insan zamanı yalnız içində söndürə bilər, obyektiv zamansa öz işindədir. Sən biletini ləğv eləməklə qatar yolundan qalmayacaq. Conu da, qatarı da saxlamaq olmur, Duqlas zamanla savaşdan yenik çıxır. Tənhalıq acısı, təklik qorxusu onu necə qomarırsa, evə çatan kimi qardaşının dilindən söz alır ki, bu dünyada Tom onu heç vaxt yalqız qoymayacaq.

***

Gənc jurnalist Bill Forester nə müddətdir doxsan beş yaşlı Elen Lumisin aşiqidir. Qadının gənclik şəklini görəndə Bill onun nə yaşda olduğunu, bu gözəl qızın artıq çoxdan qocaldığını bilməyib. Onunla təsadüfən tanış olanda jurnalist görür ki, xanım Lumisin ağlı-huşu yerindədir, məntiqi, yaddaşı əsla zədələnməyib. Qadın gəncliyində bir oğlanı sevsə də, nə ona, nə də ondan sonra ərə getməyib, çoxlu şəhərlər, ölkələr dolaşıb. Onlar Elenin bağçasında, ağacların kölgəsində yeniyetmə sevgililər kimi günlərlə söhbətləşirlər, jurnalist xanım Lumisin parlaq yaddaşının bələdçiliyi ilə onun getdiyi ölkələrə səyahətə çıxır, onun gəzdiyi şəhərlərin küçələrini gəzir. Qadın özündən yetmiş yaş cavan oğlana onu sevdiyinə, onu axtardığına görə minnətdarlıq eləyir, Bill Forestərə çoxdan ölmüş sevgilisinin reinkarnasiyası kimi baxır.

Sonda Elen Lumis gənc jurnalistə elə sözlər deyir ki, bunu sevgi etirafı kimi də, vəsiyyət kimi də, müəllifin inancı kimi də yozmaq olar:

“Əzizim Uilyam, bir neçə gündən sonra mən öləcəyəm. Sözümü kəsməyin, mən əsla qorxmuram, uzun ömür yaşayanda çox şeyi, elə qorxu hissini də itirirsən... Belə bir çeynənmiş ifadə var - ruh doğmalığı; bax bizim də aramızda bu sayaq bir doğmalıq var. Mən həmişə düşünmüşəm ki, əsl sevgi ruhdan gəlir, hərçənd bədən çox vaxt buna inanmaq istəmir. Bədən yalnız özü üçün yaşayır. Ancaq yemək, içmək, bir də gecəni gözləmək naminə. Mahiyyətcə o, gecəquşudur. Ruhsa günəşdən törəyib, onun qisməti yaşadığımız ömür boyu min-min saat oyaq qalıb ətrafımızda olanları canına çəkməkdir. Heç insafdırmı bədəni - bu miskin, xudbin zülmət törəməsini bizə günəşin, ruhun bütöv bir ömür boyu verdikləriylə eyni tərəziyə qoyasan? Bilmirəm. Bildiyim bircə budur ki, ömrümün son günlərində mənim ruhum sizin ruhunuzla təmasa girdi, bu günlər həyatımın ən xoş günləri oldu... Mən bu işıqlı dünyada çox yaşamışam, burası aydındır. Sizsə ya çox tez, ya da çox gec doğulmusunuz. Son dərəcə nəhs uyğunsuzluqdur. Ola bilsin, bu, mənim cəzamdır - gəncliyimdə yüngülbeyin qız olmuşam. Növbəti dövrəni vuranda, ola bilər, bu uyğunsuzluq aradan qalxsın, təkərlər bir-birinin ahənginə uyğun fırlansın... Mənə söz verin ki, qocalana qədər yaşamayacaqsınız, Uilyam. Mümkün olsa, əlli yaşınıza qədər ölməyə çalışın. Bilirəm ki, bu, elə də sadə məsələ deyil. Ancaq sizə bunu sidq-ürəkdən məsləhət görürəm - kim bilir, ikinci Elen Lumis yer üzünə bir də nə vaxt gələcək. Təsəvvürünüzə gətirin: siz əldən düşmüş bir qoca, min doqquz yüz doxsan doqquzuncu ilin gözəl bir günündə küçədə mənə rast gəlirsiniz, mənimsə bu vaxt vur-tut iyirmi bir yaşım var. Ömür bu dəfə də puça çıxacaq, elə deyilmi?.. Təxminən iyirmi ildən sonra özünüzə, məsələn, sətəlcəm kimi bir xəstəlik tapın. Axı mən bilmirəm sizi orada, o dünyada nə qədər saxlayacaqlar, birdən dərhal buraxdılar? Mən əlimdən gələni eləyəcəyəm ki, bir daha yaş uyğunsuzluğuna, səhvə, gecikməyə yol verilməsin...”

Rey Bredberinin on iki yaşı olanda onun otuz minlik doğma Uokiqan şəhərinə (əsərdə baş verənlərin cərəyan elədiyi Qrintaunun prototipi bu şəhərdir) qastrola gəlmiş sirkin məşhur sehirbazı gələcəyin böyük yazıçısını uzun, firavan ömürlə müjdələməklə yanaşı ona bu sirri də açmışdı: “Sən mənim döyüşdə həlak olmuş dostumsan, 1918-ci ildə, dünya müharibəsi hələ bitməmiş Fransada qollarımın üstündə keçinmisən. İki il sonra burada bir başqa donda dünyaya gəlmisən...”

Görünür, yazıçının reinkarnasiyaya inamı elə o söhbətdən sonra yaranmağa başlayıbmış. Bunu da deyək ki, panteizm duyğusuyla reinkarnasiya inancı bir-birinə əkiz qardaşdır, biri mütləq o birini də gətirir.

Sehirbazın diaqnozunun doğru olub-olmadığını deyə bilmərik, ancaq proqnozu düz çıxdı: Rey Bredberi 2012-ci ilin 22 avqustunda dünyasını dəyişəndə doxsan iki yaşının tamam olmasına iki ay on yeddi gün qalmışdı.



**F.Uğurlu**

**davamı növbəti sayımızda**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







# Şuşaya növbəti köç ...

## Daha 208 nəfər doğma yurduna qovuşdu

İkinci Qarabağ müharibəsindəki möhtəşəm qələbəmizdən sonra işğaldan azad edilmiş ərazilərimizdə Böyük Qayıdış çərçivəsində quruculuq işləri sürətlə davam edir. Həmin ərazilərdə təmir və yenidənqurma prosesi sürətlə, metodik və strateji şəkildə aparılır. Belə ki, dövlətimiz "Böyük Qayıdış" planına uyğun olaraq məcburi köçkünlərin öz evlərinə qayıtmasını sürətləndirmək üçün bütün mövcud kanalları işə salıb. Həmin ərazilərdə yeni icmaların, yolların, məktəblərin, xəstəxanaların tikintisi və infrastrukturun bərpası durmadan artır.

## Şuşa milli ruhunu saxlaya bildi!

Tarixi mənbələrə görə, Şuşa şəhəri ermənilər tərəfindən üç dəfə - 1905-ci, 1920-ci və 1992-ci illərdə dağıdılıb, yandırılıb, bu sənət məbədinə ağır zərbələr vurulub. Ermənilər öz havadarlarına arxalanaraq Şuşada tarixi keçmişimizi, mənəvi yaddaşımızı silməyə cəhd göstəriblər. Şəhərdəki mədəniyyət ocaqları, abidələr, tarixi-memarlıq nümunəsi olan tikililər dağıdılaraq talan edilib, saxtakarlıqla erməniləşdirilməyə cəhd edilib. Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600-ə yaxın tarixi memarlıq abidəsini dağıdıblar. 29 il ərzində mənfur düşmən nə qədər çalışsa da Şuşanın ruhunu, görkəmini dəyişdirə bilmədi. Evlər sökülüb, tarixi abidələr sökülüb, məscidlər sökülüb, bulaqlar qurudulub, təbiətə vəhşi münasibət göstərilib. Buna baxmayaraq, Şuşa öz milli ruhunu saxlaya bilib, onu silməyə düşmənin gücü çatmayıb...

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi**

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"" istiqaməti üzrə hazırlanmışdır**

**Dörd il öncə, noyabrın 8-də İkinci Qarabağ müharibəsi zamanı Ordumuz Şuşa şəhərini işğaldan azad edərək şanlı tarix yazdı. Bu möhtəşəm qələbə ölkə başçısının sərəncamı ilə əbədiləşdirildi. Şuşa şəhərinin işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq noyabrın 8-i Zəfər Günü elan edildi. 2021-ci il yanvarın 14-də isə İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı ucaltdı...**



## Ən ağır itkilərimizdən biri idi...

Şuşa 32 il bundan əvvəl işğal edilərək, düşmənin əlinə keçmişdi. Bununla da orada doğulan, böyüyən soydaşlarımızın yurd həsrəti başlamışdı. Rəsmi məlumata görə, Şuşanın işğalı zamanı 195 nəfər həlak olub, 165 nəfər yaralanıb. Bundan başqa, 55 nəfər əsir düşüb və ya girov götürülüb. İşğal nəticəsində 22 min nəfərə yaxın azərbaycanlı məcburi köçkün düşüb. Şuşanın işğalı ermənilər üçün "böyük qələbə", azərbaycanlılar üçün "ən ağır itki" kimi qəbul olunmuşdu. Bütün Qafqazın incisi hesab olunan Şuşa şəhəri tarixi, mədəniyyət və memarlıq abidələri ilə zəngindir. İşğala qədər Şuşada memarlıq abidəsi sayılan yüzlərlə yaşayış binası, mədəniyyət və tarixi abidə olub.

## 25 min nəfərədək əhali yaşayırdı...

Ermənilərin Şuşaya son hücumu 1992-ci il mayın 7-dən 8-nə keçən gecə başlamışdı. Şəhər dörd bir tərəfdən raket, top, tank və digər silahlardan şiddətli atəşə tutulub. Bundan sonra düşmən Xankəndi və Kərkicahan istiqamətlərindən piyadalarla hücuma keçib. Şəhər mayın 8-də axşamadək müdafiə olunsa da, silah-sursat və canlı qüvvə sarıdan üstün olan işğalçıların qarşısında tab gətirə bilməyib. Ermənilər əvvəlcə Şuşanı, sonra isə yaxınlıqdakı Kosalar və Şırlan kəndlərini ələ keçiriblər.

Əslində alınmaz qala sayılan Şuşanın belə qısa müddətdə süqut etməsinin səbəblərindən biri şəhərin müdafiəsinin yetərincə təşkil olunmaması idi. Ermənistan isə Şuşa ətrafına çoxsaylı hərbi texnika və canlı qüvvə yığmışdı. Erməni silahlı birləşmələrinin tərkibində hətta xaricdən gətirilmiş muzdlular da döyüşürdülər.

Şuşa işğal edilərkən burada 25 min nəfərədək əhali yaşayırdı. Ermənilər tərəfindən əsir götürülərək Şuşa həbsxanasında saxlanılan 114 azərbaycanlı sonradan xüsusi qəddarlıqla qətlə yetirilib.

## Hər kəs əmin idi...

Bu müddət ərzində keçmiş məcburi köçkünlərimizin hamısı bilirdi və əmin idilər ki, Prezident İlham Əliyev onların yurd həsrətinin sona yetməsi üçün lazım olan bütün addımları atır. Dörd il öncə, noyabrın 8-də İkinci Qarabağ müharibəsi zamanı Ordumuz Şuşa şəhərini işğaldan azad edərək şanlı tarix yazdı. Bu möhtəşəm qələbə ölkə başçısının sərəncamı ilə əbədiləşdirildi. Şuşa şəhərinin işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq noyabrın 8-i Zəfər Günü elan edildi. 2021-ci il yanvarın 14-də isə İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı ucaltdı.

## Daha 51 ailə...

Ötən gün Şuşaya növbəti köç baş tutdu. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Şuşa şəhərinə, respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb.

Bu mərhələdə Şuşa şəhərinə 51 ailə - 208 nəfər köçürülüb.

*Yeganə BAYRAMOVA*

# "Azercell"-in dəstəyi ilə daha bir "İnformatika Düşərgəsi" baş tutub




***Düşərgədə iştirak edən məktəblilər ölkəmizi üç nüfuzlu beynəlxalq olimpiadada təmsil edəcək***

Ölkəmizin beynəlxalq fənn olimpiadalarında təmsil etməyə hazırlaşan şagirdlərin hazırlıq prosesi müvəffəqiyyətlə davam edir. "Azercell", Elm və Təhsil Nazirliyi və Təhsil İnstitutunun birgə əməkdaşlığı çərçivəsində Bakı Ali Neft Məktəbində bu məktəblilər üçün növbəti "İnformatika Düşərgəsi" təşkil olunub.

Düşərgə Avropa Qızlar İnformatika Olimpiadası, Yeniyetmələrin Avropa İnformatika Olimpiadası və Beynəlxalq İnformatika Olimpiadası kimi mötəbər müsabiqələrə hazırlaşan məktəbliləri bir araya gətirib. Təlimlərdə Bakı və ölkəmizin müxtəlif bölgələrindən Respublika Fənn olimpiadalarının qalibləri arasından seçilən 8-9-cu sinif şagirdləri iştirak edib.

Bir həftəlik intensiv proqram çərçivəsində iştirakçılar hər gün beynəlxalq olimpiadaların formatına uyğun yarışlara qoşulublar. Həmçinin sessiyalar zamanı təqdim olunan məsələlərin izahı aparılıb və yeni mövzular ətrafında müzakirələr keçirilib.

Xatırladaq ki, 2017-ci ildən etibarən məktəblilərimizin beynəlxalq fənn olimpiadalarına hazırlıq prosesi "Azercell Telekom" MMC-nin dəstəyi ilə həyata keçirilir. Bu müddət ərzində Azərbaycanın bölgə və paytaxt məktəblərində təhsil alan şagirdlərimiz fərqli yaş qrupları üzrə müxtəlif miqyaslı proqramlaşdırma müsabiqələrində ümumilikdə 80 medal qazanıblar.

"Azercell Telekom" MMC haqqında ətraflı məlumat üçün "Azercell" səhifəsinə keçid etməyinizi xahiş edirik.

# "Nar" və "NETTY" ölkənin ən yaxşı rəqəmsal təşəbbüslərini mükafatlandırdı




Bu il də sərfəli qiymətləri ilə abunəçilərinə ən yaxın olan mobil operator "Nar" və Milli İnternet Mükafatı "Netty" internetin Azərbaycan seqmentində həyata keçirilən rəqəmsal təşəbbüsləri mükafatlandırdı. Elm, maliyyə, innovasiya, səhiyyə, turizm, kimi geniş spektri əhatə edən müsabiqədə 200-dən çox layihə 9 nominasiya və 27 alt nominasiya üzrə qeydiyyatdan keçmişdi.

Finalçılar həm "Netty" ekspertlərinin, həm də internet istifadəçilərinin onlayn səsverməsi əsasında müəyyən edildi. Mükafata namizədlərin və ekspertlərin, eləcə də tanınmış simaların iştirak etdiyi mükafatanlandırma mərasimində 21 qalib layihə bəlli oldu. Qalib layihələr haqqında ətraflı məlumatı netty.az səhifəsindən öyrənə bilərsiniz.

Qeyd edək ki, hər il "Nar"-ın baş tərəfdaşlığı ilə keçirilən "NETTY" Milli İnternet Mükafatı 20 ildir ki, internetin Azərbaycan seqmentində həyata keçirilən müxtəlif layihələri tanıdır və mükafatlandırır. "Netty" mükafatı ilə tərəfdaşlıq "Nar"ın Korporativ Sosial Məsuliyyət strategiyasının təhsil və maarif istiqamətinə uyğun olaraq həyata keçirilir. "Nar"ın KSM layihələri haqqında daha ətraflı nar.az səhifəsindən öyrənə bilərsiniz.

Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# "Nar"ın rouminq paketləri ilə Yeni il səyahətində sərfəli ünsiyyət!

Yeni il tətilini ölkə xaricində keçirmək istəyənlərə "Nar" sərfəli rouminq paketləri ilə ünsiyyəti daha əlçatan edir.

Səfərinizə daha çox rəng qatmaq üçün "Nar"ın geniş çeşidli rouminq paketlərindən birini seçə bilərsiniz. Xüsusilə "Rouminq 28" paketi ilə siz 1 GB internet, 100 danışıq dəqiqəsi və xaricdə olarkən "WhatsApp"da pulsuz yazışma imkanı əldə edəcəksiniz.




Paketi aktivləşdirmək üçün sadəcə *777*728#YES şifrəsini yığmaq kifayətdir.

Səfərə çıxmazdan öncə nar.az/senin-ucun/rouminq səhifəsinə daxil olaraq öz ehtiyaclarınıza uyğun ən sərfəli paketi seçməyi unutmayın.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# "Apple Pay" və "Google Pay" ödəniş üsulları ilk dəfə olaraq "Azercell" tətbiqində!




***Lider mobil operator yerli bazarda tokenləşdirilmiş balans artımını təklif edən ilk mobil operator oldu***

Ən innovativ rəqəmsal həlləri müştəriləri üçün əlçatan etməyi hədəfləyən "Azercell" bu dəfə mobil ödənişlərin asanlığı təmin edir. Lider mobil operator "Apple Pay" və "Google Pay"in "Azercell" mobil tətbiqinə inteqrasiyasını reallaşdırır.

Bu yenilik istifadəçilərə mobil balanslarını tez, təhlükəsiz və rahat şəkildə artırmağa imkan verir, kart məlumatlarını manual olaraq daxil etmək ehtiyacını aradan qaldırır.

"Apple Pay" və "Google Pay"ın "Azercell" mobil tətbiqinə inteqrasiyası ödənişləri biometrik autentifikasiya və ya xüsusi ödəniş funksiyası vasitəsilə saniyələr ərzində həyata keçirməyə imkan verir. Eyni zamanda, yeni ödəniş üsulu istifadəçi məlumatlarını qorumaq və əngəlsiz əməliyyat prosesini təmin etmək üçün qabaqcıl tokenizasiya texnologiyalarından (istifadəçilərin kart məlumatlarının şifrələnməsi) istifadə edərək əməliyyat təhlükəsizliyini də yüksək səviyyədə təmin edir.

Əlavə məlumat üçün: https://www.azercell.com/az/


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4800**
**Sifariş: 3005**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova